# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ 2020-ci İL ÜZRƏ FƏALİYYƏTİNİN YEKUNLARINA DAİR

# H E S A B A T

*(Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2021-ci il 23 fevral tarixli № 328/1 nömrəli qərarı ilə təsdiq edilmişdir)*

**BAKI – 2021**

*"...Ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlı olan müstəqil auditin ölkəmizdə formalaşdırılması və onun normativ hüquqi bazasının yaradılması qısa zaman kəsiyində maliyyə nəzarətinin bu müstəqil növünün uğurlu inkişafına imkan yaratmışdır. Ölkəmizdə auditor fəaliyyətinin dövlət tənzimlənməsi Auditorlar Palatası tərəfindən həyata keçirilir. Auditorlar Palatasının fəaliyyəti dövründə ölkədə beynəlxalq audit standartlarının tətbiqi reallaşdırılmış, daxili audit xidmətinin korporativ idarəetmə sisteminin ayrılmaz elementinə çevrilməsi, auditorların fəaliyyətinə effektiv nəzarətin qurulması sahəsində xeyli iş görülmüşdür. Palata beynəlxalq və regional peşə qurumlarında, o cümlədən Beynəlxalq Mühasiblər Federasiyası kimi çox nüfuzlu bir təşkilatda ölkəmizi layiqincə təmsil edir".*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# ÖN SÖZ

2020-ci ildə COVİD-19-un yayıldığı bir şəraitdə yaranmış gərgin vəziyyət və auditor xidmətinin sifarişçiləri olan təsərrüfat subyektlərinin üzləşdikləri çətinliklər iqtisadiyyatda şəffaflığın təmin olunmasında, kölgə iqtisadiyyatına qarşı mübarizədə, resurslardan səmərəli istifadə edilməsində, iqtisadi təhlükəsizliyin təmin olunmasında əvəzedilməz önəm kəsb edən və maliyyə hesabatlarının şəffaflığının əsas təminatçılarından olan audit peşəsi - müstəqil audit üçün də təsirsiz ötüşməmişdir.

Hesabat ilində auditorların öz vəzifələrinin və öhdəliklərinin layiqincə yerinə yetirmələrinə dəstək verilməsi məqsədilə Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən kompleks tədbirlər işlənib həyata keçirilmişdir. Bu məqsədlə Azərbaycan Respublikasının Auditorlar Palatasında 2020-ci il 8 aprel tarixli “Pandemiya şəraitində auditor xidmətinin qarşısında duran vəzifələrin həllinə dair” Sərəncam qəbul edilmişdir. Sərəncamın məqsədi müasir şəraitdə ölkədə müstəqil auditin qarşısında duran problemlərin müəyyənləşdirilməsi, bu problemlərin operativ və səmərəli həll edilməsi üzrə yeni dövrün çağırışlarına uyğun tövsiyələrin işlənib hazırlanması, Auditorlar Palatasının üzvlərinə əməli köməkliyin göstərilməsi, Palata üzvlərindən daxil olan təklif və tövsiyələrin təxirə salınmadan öyrənilməsi, həll edilməsi və zəruri hallarda müvafiq mərkəzi icra hakimiyyəti orqanları qarşısında qaldırılması, pandemiya dövründə qabaqcıl xarici təcrübənin Azərbaycan auditində tətbiqini təmin etməkdən ibarət olmuşdur. Sərəncama müvafiq olaraq Auditorlar Palatasında yaradılmış İşçi Qərargah Auditorlar Palatasının üzvləri ilə distant əlaqə yaratmaqla audit peşəsi üçün vacib hesab edilən məsələləri öyrənmiş və operativ qərarların qəbul edilməsi üçün müvafiq işləri həyata keçirmişdir.

Palata üzvləri ilə aparılan peşəkar müzakirələr, üzvlər tərəfindən təqdim edilən təklif və tövsiyələr əsasında 2020-ci il 15 aprel tarixində “Pandemiyaya qarşı mübarizə və onun nəticələrinin aradan qaldırılmasına dair Azərbaycan Respublikası Auditorlar Palatasının Tədbirlər Planı” təsdiq olunaraq icraya yönəldilmişdir.

Bazar infrastrukturu olmaq etibarilə milli iqtisadiyyatın, ilk növbədə də sahibkarlığın inkişafına töhfəsini artırmaq üçün auditor xidmətinin daha geniş anlamda qəbul edilməsi, həmin anlayışa sifarişçilərə iqtisadi strategiyaya dair məsləhət və tövsiyələr verməkdən tutmuş optimallaşdırma məsələlərinə qədər əhatəli bir xidmət sahəsinin daxil edilməsi tələb olunur. Beynəlxalq audit praktikasında istifadə olunan fəaliyyət növlərinin və metodlarının geniş tətbiqi ölkəmizdə auditin təşkilinin əsas istiqamətləri kimi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında auditin dünya standartları səviyyəsində təşkili ona yalnız mühasibat uçotu kontekstində baxılmasını yox, idarəetmə prosesində nəzarət-analitik infrastruktur elementi kimi qəbul edilməsini tələb edir.

Müasir şəraitdə Azərbaycanın innovativ iqtisadiyyatında auditin inkişaf xüsusiyyətlərinin öyrənilməsi, keyfiyyətli uçot və auditin formalaşdırılması problemlərinin, onların həlli yollarının aşkara çıxarılması böyük rol oynayır.

Bunu nəzərə alaraq, Azərbaycan Respublikasının Auditorlar Palatasında 2020-ci ildə “Azərbaycan Respublikasında Auditor fəaliyyətinin inkişaf Konsepsiya”sı işlənib hazırlanmışdır.

2021-2030-cu illəri əhatə edəcək auditin üçüncü inkişaf konsepsiyası Azərbaycanda auditor fəaliyyətinin müasir vəziyyəti və onun inkişafına mane olan əsas problemlər, auditor xidmətinin keyfiyyət problemləri, auditor fəaliyyətində şəffaflığın artırılması, dempinq, haqsız rəqabət və korrupsiyaya qarşı mübarizə, auditor xidmətlərinə tələbatın və ictimai etimadın yüksəldilməsini, eləcə də, qabaqcıl xarici təcrübənin tətbiqi və beynəlxalq peşəkar qurumların fəaliyyətində milli auditin iştirakının genişləndirilməsini, rəqəmsal iqtisadiyyat şəraitində auditor fəaliyyətində innovasiyaların tətbiqi istiqamətlərini (konseptual əsasları), auditor kadrlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsini, auditor xidməti bazarında tənzimləmə və təşkilin inkişaf istiqamətlərini, auditor fəaliyyətinin normativ hüquqi təminatının yaxşılaşdırılmasını və 2030-cu ilə qədər Azərbaycanda auditor fəaliyyətinin inkişafının konseptual istiqamətlərini özündə əks etdirir.

Hesabat ilində eyni zamanda, “Auditor fəaliyyətində haqsız rəqabət hallarına qarşı mübarizəyə dair təlimat” işlənib hazırlanmış, “Auditorların müstəqillik qaydaları” kitab şəklində nəşr etdirilmiş və Auditorlar Palatasının üzvü olan auditor təşkilatlarına və sərbəst auditorlara çatdırılması təmin edilmiş, “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar Toplusu (2010-2020-ci illər)” hazırlanaraq çap etdirilmişdir.

Şanlı qələbəmizlə tarixə düşən 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müharibədən sonrakı dövrdə işğal olunmuş ərazilərin bərpasına dair konseptual təklif və göstərişlərinin reallaşdırılması istiqamətində zəruri tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində elmi-praktik əhəmiyyət kəsb edən tövsiyələrin müəyyənləşdirilməsi məqsədilə, Azərbaycan Respublikası Auditorlar Palatasının Azərbaycan İqtisadçılar İttifaqı ilə birgə təşkilatçılığı ilə 2020-ci il 24 noyabr tarixində “Qələbəyə aparan yol: iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” mövzusunda onlayn elmi-praktik konfrans keçirilmişdir. Konfransda işğaldan azad edilən torpaqlarımızın yenidən qurulması, ölkəmizə dəyən zərərin qiymətləndirilməsi, maliyyə vəsaitlərindən səmərəli istifadə və xarici təcrübənin geniş tətbiqi istiqamətində təklif və tövsiyələr hazırlanaraq müvafiq qurumlara təqdim edilmişdir.

***Vahid NOVRUZOV,***
***Auditorlar Palatasının sədri,***
***iqtisad elmləri doktoru, professor***

# I. GİRİŞ

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə iş planı auditin təşkili və tənzimlənməsi, beynəlxalq audit standartlarının tətbiqi, keyfiyyətə nəzarət, etika və şəffaflığın təminatı, kadr hazırlığı, beynəlxalq əlaqələr, nəşrlər, konfranslar və seminarlar, maliyyə-informasiya təminatı, Palatadaxili tənzimləmə istiqamətlərində Palatanın fəaliyyətini özündə ehtiva etdirmişdir. İş planına uyğun olaraq aşağıdakı istiqamətlər üzrə nəzərdə tutulmuş işlər yerinə yetirilmişdir:**

1. Audit qanunvericiliyinə dair normativ-hüquqi aktların layihələrinin hazırlanması:
   - Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər üzrə) hazırlanması;
   - Azərbaycan Respublikasının Vergi və Mülki Məcəllələrinə, digər qanunvericilik aktlarına dəyişikliklər layihəsinin hazırlanması və müvafiq qaydada təqdim edilməsi.
2. Auditor fəaliyyəti ilə əlaqədar təlimatlar, tövsiyələr, metodik göstəriş və şərhlərin hazırlanması:
   - Haqsız rəqabət hallarına qarşı mübarizəyə dair təlimatın hazırlanması;
   - Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyə auditorlar tərəfindən riayət edilməsinin monitorinqinə dair təlimatın hazırlanması;
   - Auditor fəaliyyətini tənzimləyən və onunla bağlı olan Azərbaycan Respublikasının qanunvericilik və digər normativ hüquqi aktlarının tətbiqinə dair şərhlərin hazırlanması;
   - Auditor xidmətlərinin genişləndirilməsi ilə bağlı tövsiyələrin hazırlanması;
   - Beynəlxalq təcrübə nəzərə alınmaqla kölgə iqtisadiyyatının qiymətləndirilməsi üzrə metodoloji Əsasnamənin hazırlanması və tətbiqi.
3. Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədlərinin tətbiqinin monitorinqi.
4. Sərbəst auditorların və auditor təşkilatlarının 2019-cu il üzrə illik hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması.
5. 2019-cu ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi.
6. Sərbəst auditorların və auditor təşkilatlarının 2020-ci il üzrə I yarımillik hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması.
7. Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə auditor yoxlamalarının aparılması.
8. Auditorun şəxsi kabineti sisteminin tətbiq edilməsi.
9. Yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməkliyin göstərilməsi.

10. 2019-cu il üzrə auditdən keçməyən məcburi audit subyektlərinin müəyyən edilməsi və təsnifləşdirilməsi.

11. Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyada nəzərdə tutulan tədbirlərin tətbiqi.

12. Kölgə iqtisadiyyatının azaldılması üzrə Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin tətbiqi.

13. Auditorların müstəqillik qaydalarının hazırlanması.

14. Beynəlxalq Audit Standartlarının son versiyasına edilmiş dəyişikliklərin tərcüməsi, redaktəsi, auditor təşkilatlarına və sərbəst auditorlara çatdırılması.

15. 2019-cu ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlilin hazırlanması.

16. Milli layihələrin, Dövlət proqramlarının, Strategiyaların, fəaliyyət planlarının, fərmanların, sərəncamların, Azərbaycan Respublikası Prezidentinin və Birinci vitse-prezidentin tapşırıqlarının, tövsiyələrinin icrasının gedişi və nəticələri barədə məlumatların hazırlanması və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilməsi.

17. Monitorinqdə iştirak edən digər şəxslərə münasibətdə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, eləcə də terrorçuluğun maliyyələşdirilməsi risklərinin qiymətləndirilməsi, müəyyən edilmiş risklərə uyğun olaraq həyata keçirilmiş nəzarət yoxlamaları barədə ətraflı məlumatın hazırlanması və Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməsi.

18. 2020-ci il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin layihəsinin hazırlanması.

19. Auditorların ixtisasartırma kurslarının keçirilməsi.

20. Auditor adı almaq üçün imtahanların təşkil edilməsi.

21. Maliyyə hesabatlarının hazırlanmasına dair ixtisasartırma kurslarının keçirilməsi.

22. Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) təqdim edilmiş fəaliyyət planının icrası ilə əlaqədar məlumatların hazırlanması və göndərilməsi.

23. Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) üzvlük tələblərinin icrası ilə əlaqədar vəzifələrin yerinə yetirilməsinin təşkil edilməsi.

24. Beynəlxalq və xarici audit və mühasibat qurumları tərəfindən təşkil olunacaq konfranslarda, forumlarda, simpoziumlarda və digər tədbirlərdə Palata təmsilçilərinin iştirakının təmin edilməsi.

25. Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) ilə birgə işlərin aparılması.

26. Xarici ölkələrin audit və mühasibat qurumları ilə əlaqələrin genişləndirilməsi.

27. Xarici və yerli tərəfdaşlarla əməkdaşlığa dair saziş və memorandumların hazırlanmasının və imzalanmasının təmin edilməsi.

28. Auditin aktual problemləri üzrə konfransların, simpoziumların, “dəyirmi masa”ların və seminarların təşkilinin müvafiq struktur bölmələr ilə birgə həyata keçirilməsi.

29. Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illiyi ilə əlaqədar hazırlıq tədbirlərinin həyata keçirilməsi.

30. Kiçik və orta müəssisələrin auditində Beynəlxalq Audit Standartlarının tətbiqinə dair təlimatın tərcümə etdirilməsi.

31. Auditə dair kitabların, dərs vəsaitlərinin, məlumat və təbliğat-təşviqat xarakterli kitabça, broşür, prospektlərin və digər materialların hazırlanmasının və nəşr etdirilməsinin təşkil edilməsi.

32. Auditorlar Palatasının fəaliyyəti barədə ictimaiyyətin KİV-lər vasitəsilə müntəzəm məlumatlandırılması.

33. “Auditor xidməti” onlayn rejimli forum, interaktiv sual-cavab bölməsi, çat və digər əlaqələndirmə sistemlərinin tətbiq edilməsi.

34. Auditorlar Palatasında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına dair 1 və 2 nömrəli illik hesabat formalarının hazırlanıb təqdim edilməsi.

35. Pandemiyaya qarşı mübarizə və onun nəticələrinin aradan qaldırılmasına dair Azərbaycan Respublikası Auditorlar Palatasının Tədbirlər Planında nəzərdə tutulmuş işlərin həyata keçirilməsi.

36. Auditorlar Palatasının 2019-ci il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması.

## II. AUDİTORLAR PALATASININ DÖVLƏT PROQRAMLARINDA İŞTİRAKI

2020-ci ildə Auditorlar Palatası bir sıra mühüm əhəmiyyət kəsb edən Dövlət Proqramlarının icrasında iştirak etmişdir. O cümlədən:

**1. Korrupsiyanın qarşısının alınması və dövlət orqanlarının fəaliyyətində şəffaflığın gücləndirilməsi sahəsində tədbirlər**

"Korrupsiyanın və kölgə iqtisadiyyatının ümumilikdə və sahələr üzrə baş vermə səbəblərinə, xüsusiyyətlərinə və səviyyəsinə dair hesabatlılıq, şəffaflıq və audit üzrə qanunvericiliyə əməl edilməsinin təsirinin arasında əlaqənin öyrənilməsi məqsədilə tədqiqatların və rəy sorğularının həyata keçirilməsi" bəndini nəzərə alaraq, Auditorlar Palatası tərəfindən "Kölgə iqtisadiyyatının həcminin ölçülməsi üzrə" metodik vəsait hazırlanmış və 2020-ci il 20 noyabr tarixində Palata Şurasının 323/3 nömrəli qərarı ilə təsdiq edilmişdir. Hazırlanmış material barədə ümumi məlumat aşağıda verilir:

Kölgə iqtisadiyyatının ölçüsünü qiymətləndirmədən ölkənin iqtisadi vəziyyətinin real mənzərəsini müəyyənləşdirmək, iqtisadiyyatın idarə edilməsində səmərəli dövlət siyasətini həyata keçirmək mümkün deyildir. Hökumət, beynəlxalq maliyyə təşkilatları, banklar, eləcə də elmi ictimaiyyət kölgə iqtisadiyyatının ölçüsü və dinamikası barədə reallığa daha yaxın qiymətləndirmələrin alınmasında maraqlıdır.

Kölgə iqtisadiyyatının həcminin nəzərə alınması hər bir ölkədə makroiqtisadi proseslərin ölçüsü və dinamikası haqqında təsəvvürlərin düzgün formalaşması, habelə iqtisadiyyatın fəaliyyət mexanizminin açıqlanması, iqtisadi islahatların nəticələrinin müəyyən edilməsi və perspektivlərin qiymətləndirilməsi, habelə cəmiyyətdə gedən proseslərin və təbəqələşmənin aşkarlanması üçün zəruridir. Qeyd etmək lazımdır ki, dünyanın müxtəlif ölkələrində rəsmi statistika orqanlarının kölgə iqtisadiyyatının müəyyənləşdirilməsi üzrə istifadə etdikləri qiymətləndirmə metodları, adətən, müvafiq beynəlxalq təşkilatların, o cümlədən Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının, ACCA-nın metodlarından nəzərəçarpacaq dərəcədə fərqlənir. Azərbaycan statistikasında beynəlxalq qurumların standartlarına uyğun olaraq "müşahidə olunmayan iqtisadiyyat" anlayışından istifadə edilir ki, bu həm də özündə "gizli", "qeyri-qanuni" və "qeyri-formal" kimi fəaliyyətləri ehtiva edir. Bir qayda olaraq, kölgə iqtisadiyyatının mürəkkəb xüsusiyyətlərini özündə cəmləşdirməsini nəzərə alaraq onun həcmi şərti hesablanır.

- **Auditorlar və digər maraqlı tərəflər üçün korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlimlərin keçirilməsi (zərurət olduqda mövcud əməkdaşlıq sazişinə uyğun olaraq Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi ilə birgə):**

"Auditorların ixtisasartırma kurslarının keçirilməsi"nə dair Auditorlar Palatası Şurasının 2020-ci il 20 may tarixində 320/3 saylı qərarı ilə təsdiq edilmiş proqrama əsasən, 2020-ci il 07 sentyabr tarixindən 24 sentyabr tarixinədək siyahı üzrə I, II və III qrup (78 nəfər) auditorlar üçün ixtisasartırma kursları keçirilmişdir. Bu kursun yekunu

olaraq, 2020-ci il 24 sentyabr tarixində imtahanlar keçirilmişdir. 6 nəfər imtahandan müvəffəq bal toplamamışdır. İmtahanı müvəffəq balla bitirən auditorlara sertifikatlar hazırlanmış və təqdim edilmişdir. 2020-ci il 12 oktyabr tarixindən 29 oktyabr tarixinədək siyahı üzrə III, IV, V, VI və VII qrup (93 nəfər) auditorlar üçün növbəti ixtisasartırma kursları keçirilmişdir. Bu kursun yekunu olaraq, 2020-ci il 29 oktyabr tarixində imtahanlar keçirilmişdir. 7 nəfər imtahandan müvəffəq bal toplamamışdır. İmtahanı müvəffəq bitirən auditorlara sertifikatlar təqdim olunmuşdur.

- **Auditorlar tərəfindən etik davranış qaydalarının pozulması hallarının monitorinqi və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə illik hesabatların hazırlanması və bu barədə məlumatların açıqlanması:**

Auditorlar Palatasının üzvü olan auditor təşkilatları və sərbəst auditorların apardıqları auditin keyfiyyətinə nəzarət monitorinqi aparılan zaman auditorlar tərəfindən etik davranış qaydalarının pozulması məsələləri ciddi araşdırılır, Auditorlar Palatasının müvafiq Komitələrində, Dəyirmi masalarda, Auditorlar Palatasının Şura iclaslarında müzakirəyə çıxarılır və müvafiq intizam tənbehi tədbirləri barədə qərarlar qəbul edilir. Eyni zamanda Auditorlar Palatasının fəaliyyətinə dair illik hesabat hazırlanarkən bu məsələlər də öz əksini tapır və yekun nəticələr barədə ictimaiyyətə Palatanın rəsmi internet resurslarından istifadə edilərək məlumat verilir.

**2. Xidmətlərin təkmilləşdirilməsi sahəsində tədbirlər**

- **Auditorlar Palatası və onun üzvləri tərəfindən xidmətlərin göstərilməsində səmərəliliyin artırılması məqsədilə həmin xidmətlər üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə Auditorlar Palatasına gəlmədən həmin sənədləri elektron formada təqdim etmək imkanlarının genişləndirilməsi:**

"Auditorlar Palatası və onun üzvləri tərəfindən xidmətlərin göstərilməsində səmərəliliyin artırılması məqsədilə həmin xidmətlər üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə Auditorlar Palatasına gəlmədən həmin sənədləri elektron formada təqdim etmək imkanlarının genişləndirilməsi" bəndinin icrası ilə əlaqədar Auditin təşkili, tənzimlənməsi və rəqəmsallaşdırılmasının müasir tələblərə müvafiq olaraq beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi, auditor xidmətlərinin həyata keçirilməsində, həmin xidmətlərə dair hesabatların keyfiyyətli və şəffaf qaydada təqdim edilməsində innovasiyaların və yeni texnologiyaların tətbiqi məqsədilə, Auditorlar Palatasının 2020-ci il üzrə iş planının 1.8-ci "Auditorun şəxsi kabineti sisteminin tətbiq edilməsi" bəndinə dair plan – proqram tərtib edilmiş və 2020-ci ilin 27 yanvar tarixində təsdiq edilmişdir. Həmin plan-proqramın 1-ci "Auditorun şəxsi kabineti sisteminin e-audit.gov.az domenində yerləşdirilməsi və istifadəyə verilməsi" bəndinin icrası tam olaraq yerinə yetirilmiş və 2020-ci ilin yanvar-fevral aylarında şəxsi kabinet e-audit.gov.az domenində yerləşdirilərək ilkin layihəsi istifadəyə verilmişdir. Bu şəxsi kabinet Auditorlar Palatası və onun üzvləri tərəfindən xidmətlərin göstərilməsində səmərəliliyin artırılması

məqsədilə həmin xidmətlər üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə Auditorlar Palatasına gəlmədən həmin sənədləri elektron formada təqdim etmək imkanlarını tamamilə təmin edir.

Auditorlar Palatası tərəfindən “Auditor adı almaq üçün imtahanların təşkil edilməsi”nə dair işlərin icrasında, Palatanın internet səhifəsinin “Elanlar” bölməsinə yerləşdirilmiş, auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazəsinin müddəti bitmiş auditorlara elektron xəbərdalıqlar göndərilmiş, yenidən imtahanlarda iştirak etmək istəyən şəxslərin ərizələri toplanmışdır.

“Auditorlar Palatasında ödənişli kursların təşkil edilməsi” bəndinin icrasını təmin etmək məqsədilə, 2020-ci il 25 noyabr tarixində “Daxili audit və daxili nəzarət” və “Daxili audit testləri və sübutların toplanması” proqramları üzrə növbəti Təlimlərin başlanılması ilə əlaqədar məktublar hazırlanaraq dövlət qurumlarının, təsərrüfat subyektlərinin, müəssisələrin və.s elektron poçt ünvanlarına göndərilmiş, Palatanın internet səhifəsinin “Elanlar” bölməsində və Palatanın “Facebook” sosial şəbəkəsində məlumat yerləşdirilmişdir. Müraciətlərə əsasən, 2020-ci il 08 dekabr tarixindən “Daxili audit və daxili nəzarət” və 09 dekabr tarixindən “Daxili audit testləri və sübutların toplanması” proqramları üzrə vebinar formada Təlimlər keçirilmiş, imtahanlar təşkil edilmiş və imtahanı uğurla başa çatdırmış şəxslərə 2021-ci ilin yanvar ayında sertifikatlar təqdim edilmişdir.

**3. Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin genişləndirilməsi, ictimai nəzarətin və ictimai iştirakçılığın artırılması sahəsində tədbirlər**

- **Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən Komitələr və Komissiya ilə əlaqələrin gücləndirilməsi, “Dəyirmi Masa”da müzakirə edilən məsələlərin əhatə dairəsinin genişləndirilməsi, ictimai nəzarət ilə bağlı maarifləndirmə və təbliğat işlərinin təkmilləşdirilməsi və Auditorlar Palatasının rəsmi internet resurslarında əks etdirilməsi:**

Auditorlar Palatası tərəfindən il ərzində audit fəaliyyətini tənzimləyən aktual məsələlərə dair Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən Komitələrlə birgə, “Dəyirmi masa”larda müzakirələr təşkil olunmuşdur. Eyni zamanda, Palata sədrinin “Azərbaycan Respublikası Auditorlar Palatasının müvafiq struktur bölmələrinin və Palatanın Şurası yanında komitələrin və komissiyanın fəaliyyətlərinin əlaqələndirilməsi” barədə 2020-ci il 16 yanvar tarixli 1/1 nömrəli Sərəncamı təsdiq edilmişdir. Sərəncam “Azərbaycan Respublikasında Auditor xidmətinin inkişaf Konsepsiyasında (2012-2020-ci illər)” həyata keçirilməsi nəzərdə tutulmuş “Auditor xidmətinin inkişafında və tənzimlənməsində Auditorlar Palatasının Şurası yanında komitələrin rolunun gücləndirilməsi” və auditin idarə edilməsi və tənzimlənməsi sahəsində beynəlxalq təcrübənin tətbiqinin genişləndirilməsinə dair tədbirlərin icrasını təmin etmək, habelə Palatanın Şurası yanında komitələrin və komissiyanın işlərinin daha da təkmilləşdirilməsi və onların fəaliyyətlərinin Auditorlar Palatasının struktur bölmələri ilə əlaqələndirilməsi

məqsədilə Auditorlar Palatasının struktur bölmələrinin müvafiq komitələrinin və komissiyanın Əsasnamələrində nəzərdə tutulmuş vəzifə və funksiyaların yerinə yetirilməsində onlara mütəmadi əməli köməklik göstərilməsini nəzərdə tutmuşdur.

## 4. İnformasiya əldə edilməsinin təmin olunması sahəsində tədbirlər

- **Auditorlar Palatasının rəsmi internet informasiya resurslarında "Açıq məlumatlar" bölməsinin yaradılması:**

"Auditorlar Palatasının rəsmi internet informasiya resurslarında "Açıq məlumatlar" bölməsinin yaradılması" bəndinin icrası ilə əlaqədar Auditorlar Palatasının rəsmi internet səhifəsində Palatanın illik fəaliyyətinin yekunlarına dair hesabat, Palatanın maliyyə hesabatlarının auditinə dair müstəqil auditorun hesabatı, Palatanın üzvü olan auditor təşkilatları və sərbəst auditorlar barədə məlumatlar, onların göstərdiyi auditor xidmətlərinin həcminə, keyfiyyətinə dair yarımillik və illik icmallar, Palatanın Şurası yanında fəaliyyət göstərən komitələrin siyahısı və tərkibləri barədə məlumatlar, auditlə əlaqədar ən son yeniliklər, elanlar, xəbərlər, Palatanın xəbərləri, Palatanın rəhbərliyi, strukturu, vətəndaşların Auditorlar Palatasında qəbulu ilə əlaqədar qaydalar, əlaqə vasitələri, "Covid-19" dönəmində Auditorlar Palatasının həyata keçirdiyi tədbirlər, onlayn konfranslar, seminarlar barədə məlumatlar, ölkədə auditor fəaliyyəti ilə məşğul olmaq üçün auditor adının alınması ilə əlaqədar tələb edilən sənədlər, prosedur qaydaları, imtahan proqramı, auditorların ixtisasartırma kurslarının tədris proqramı, Palatanın normativ hüquqi sənədləri, o cümlədən, Palata Şurasının qərarları, Palata rəhbərliyinin əmr və sərəncamları, aparılan auditlərin keyfiyyətinə nəzarətə dair məlumatlar *ictimaiyyətə açıq məlumatlar qismində* yerləşdirilmişdir.

Əlavə olaraq Palatanın sosial şəbəkələrdə olan rəsmi hesabatlarında il ərzində məlumatlar, xəbərlər, elanlar yerləşdirilmişdir.

"Açıq hökümətin təşviqinə dair 2020-2022-ci illər üçün milli fəaliyyət planı"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə tədbirlər planının 5.1-ci "Auditorlar Palatasının rəsmi internet informasiya resurslarında "Açıq məlumatlar" bölməsinin yaradılması" bəndinə uyğun olaraq şəffaflığın artırılmasına dair "Auditi aparılmış təsərrüfat subyektləri" və "Auditor xidmətinin keyfiyyətinə nəzarət" panelləri yaradılmışdır.

- "Auditi aparılmış təsərrüfat subyektləri" panelində auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış maliyyə hesabatlarının auditinin nəticələri açıqlanır (Təsərrüfat subyektinin adı, VÖEN-i, göstərilmiş xidmətin növü, auditor rəyi verən auditor təşkilatının və ya sərbəst auditorun adı, auditor rəyinin nəticəsi, auditor rəyinin verilmə tarixi, rəyin nömrəsi). Lakin audit subyekti onu yoxlayan auditor təşkilatı (sərbəst auditor) tərəfindən həqiqətən rəy verilib verilmədiyini yoxlamaq istəyərsə, təsərrüfat subyektinə verilmiş auditor hesabatının rəy bölməsində rəyin nömrəsini daxil edib həmin rəyin olub-olmamasını yoxlamaq imkanı var.

- “Auditor xidmətinin keyfiyyətinə nəzarət” panelində Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitə tərəfindən aparılmış yoxlamaya əsasən verilmiş ballar Auditorlar Palatasının rəsmi internet səhifəsində öz əksini tapmışdır.

**5. Özəl sektorda şəffaflığın və məsuliyyətin artırılması sahəsində tədbirlər**

- **Kölgə iqtisadiyyatının aradan qaldırılması, auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətində şəffaflıq, korrupsiyaya qarşı mübarizə və hesabatlılıq tələblərinin gücləndirilməsi ilə bağlı təkliflərin hazırlanması:**

Kölgə iqtisadiyyatının aradan qaldırılması, auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətində şəffaflıq, korrupsiyaya qarşı mübarizə və hesabatlılıq tələblərinin gücləndirilməsi ilə bağlı təkliflərin hazırlanması bəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə kölgə iqtisadiyyatına qarşı mübarizənin gücləndirilməsi, şəffaflığın artırılması, ictimai nəzarətin gücləndirilməsi, korrupsiyaya qarşı kəsərli tədbirlərin həyata keçirilməsi və yeni dövrün çağırışlarını nəzərə alaraq nəzarətin beynəlxalq təcrübə əsasında yenidən qurulması üzrə göstəriş və tövsiyələrini rəhbər tutaraq və Auditorlar Palatasının 2019-cu il üzrə iş planının 3.5-ci “Kölgə iqtisadiyyatının aradan qaldırılması istiqamətində kompleks tədbirlər sisteminin Yol Xəritəsi çərçivəsində işlənib hazırlanması” bəndinə uyğun olaraq, müvafiq plan-proqramda nəzərdə tutulan tədbirlərin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasında “Azərbaycan Respublikasında Kölgə iqtisadiyyatının azaldılmasına dair strateji Yol Xəritəsi” hazırlanmış və Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2019-cu il 28 dekabr tarixli 316/1 saylı qərarı ilə bəyənilmişdir. Həmin Yol Xəritəsində Kölgə iqtisadiyyatının aradan qaldırılması, auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətində şəffaflıq, korrupsiyaya qarşı mübarizə və hesabatlılıq tələblərinin gücləndirilməsi ilə bağlı təkliflər təqdim edilmişdir.

Təkliflər Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamının 2.2-ci bəndinin tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilmişdir.

# III. AUDİTİN TƏŞKİLİ VƏ TƏNZİMLƏNMƏSİ

“Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə müvafiq olaraq 2020-ci ildə Auditorlar Palatasının əsas vəzifəsi olan mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat subyektlərində maliyyə və mühasibat uçotunun dəqiq və dürüst aparılmasını təmin etmək məqsədilə respublikada auditor xidmətinin təşkili və mövcud qanunvericiliyə uyğun olaraq onun inkişafı və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirləri həyata keçirməkdə davam etmişdir.

Əsasnamədə göstərilən funksiyalar üzrə 2020-ci il ərzində aşağıdakı işlər görülmüşdür:

22 auditor təşkilatına və 3 sərbəst auditora müvafiq icazə verilmiş, 7 auditor təşkilatının və 2 sərbəst auditorun icazəsinin müddəti uzadılmış, o cümlədən 11 auditor hüquqi təşkilat yaradaraq tərkibində fəaliyyət göstərmiş, 6 sərbəst auditor fəaliyyətini dayandırmış və hüquqi təşkilat yaradaraq tərkibində fəaliyyət göstərmiş, 7 auditor isə hüquqi təşkilatın tərkibində fəaliyyətini dayandırmış və sərbəst auditor kimi fəaliyyət göstərməyə başlamışdır.

Palata tərəfindən auditin təşkilinə, tənzimlənməsinə və aparılmasına dair aşağıdakı təlimatlar, tövsiyələr və metodik göstərişlər, auditor xidməti göstərilməsinin forma və metodlarına dair normativ sənədlər hazırlanmışdır:

“Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədlərinin tətbiqinin monitorinqi” bəndinin icrasına müvafiq olaraq 2020-ci ilin I yarımilliyi üzrə auditorlar tərəfindən təqdim edilən hesabatlara əsasən göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədlərinə əməl etməyən auditor təşkilatları və sərbəst auditorların təhlili aparılmışdır. Təhlilin nəticəsi olaraq tövsiyə olunan minimum hədlərə əməl etməyən sərbəst auditor təşkilatları və sərbəst auditorların siyahısı hazırlanaraq 2020-ci il 29 sentyabr tarixində rəhbərliyə təqdim edilmişdir. Minimum hədlərin aşağı səviyyəyə düşməsinin səbəbi tərəfimizdən araşdırılmış və Palata Şurasının 2020-ci ilin 10 noyabr tarixli iclasında müzakirə edilərək onun 323/5 nömrəli qərarı ilə təsdiq edilmişdir. Palata tərəfindən müəyyən edilmiş auditor xidməti üzrə tövsiyə olunan minimum hədlərdən aşağı məbləğdə müqavilə bağlamış və icra etmiş auditor təşkilatlarının rəhbərlərinin və sərbəst auditorların elektron poçt ünvanlarına 2020-ci ilin 17 noyabr tarixində xəbərdarlıq məktubu göndərilmişdir.

“Auditorun şəxsi kabineti sisteminin tətbiq edilməsi” bəndinə dair təsdiq edilmiş plan-proqramın 5-ci “Auditorlar Palatasının üzvü olan auditor təşkilatlarının və sərbəst auditorun şəxsi kabineti sistemində qeydiyyatdan keçmələrinin təmin edilməsi” bəndinin icrasına müvafiq olaraq, üzvlərin sənədlərinin şəxsi kabinetdə yerləşdirilməsinin təmin edilməsi, onlara sistemdən tam istifadə etmələri üçün “parol” və “login” verilmişdir. Üzvlərlə şəxsi kabinetdən istifadələri üçün silsiləli onlayn vebinarlar keçirilmiş, onlara lazım olan yardımlar göstərilmişdir.

“Yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməklik göstərilməsi“ bəndinin və Palata sədrinin “Auditorlar Palatasının üzvü olan auditor təşkilatları və sərbəst auditorlara əməli köməklik göstərilməsi barədə” 2019-cu il 01 fevral tarixli 04 nömrəli Əmrinin icrasını təmin etmək məqsədilə, Auditorlar Palatası Şurasının “Yeni fəaliyyətə başlayan auditorlara əməli köməkliyin göstərilməsi üçün proqramın təkmilləşdirilməsi”nə dair 2010-cu il 18 iyun tarixli 209/3 nömrəli qərarı ilə təsdiq edilmiş “Yeni fəaliyyətə başlayan auditorlara əməli kömək göstərilməsinə dair Proqrama” uyğun olaraq, 2020-ci il üzrə 9 auditor təşkilatına, 4 sərbəst auditora əməli köməklik göstərilmiş və onlar lazımi metodik materiallarla təmin edilmişdir.

“2019-cu il üzrə auditdən keçməyən məcburi audit subyektlərinin müəyyən edilməsi və təsnifləşdirilməsi” bəndinin icrasını təmin etmək məqsədilə, auditor təşkilatlarının və sərbəst auditorların Palataya təqdim etdikləri 2020-ci ilin yarımillik hesabatları əsasında məcburi auditdən keçənlərin və keçməyənlərin siyahısı üzrə təsnifləşdirilmə aparılmışdır. Aparılan təsnifləşdirilmə nəticəsində auditdən keçməli olan təsərrüfat subyektlərinin auditdən keçmə vəziyyəti təhlil olunmuş və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidməti tərəfindən Palataya təqdim edilmiş baza ilə üzləşdirmə aparılmışdır. Əldə edilmiş məlumatlar əsasında təsnifləşdirmə və icmal təhlil edildikdən sonra hazırlanan siyahı və baza elektron disklər şəklində 2020-ci il 25 fevral tarixində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə göndərilmişdir.

Ölkəmizdə uğurla həyata keçirilən iqtisadi islahatlara dəstək verilməsi, şəffaflığın artırılması və hesabatlılığın yüksək səviyyədə qurulması, vergidən yayınma hallarının qarşısının alınması sahəsində qabaqcıl təcrübənin tətbiqi məqsədi ilə Azərbaycan Respublikasının Auditorlar Palatası və Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyasının (ARPA) birgə təşkilatçılığı ilə 2020-ci il 14 fevral tarixində saat 16:00-da Auditorlar Palatasının inzibati binasında Mühasiblər üçün peşə etikasının fundamental prinsipləri və davranış standartlarının tətbiqinə dair keçirilən seminarın mətbuat orqanlarında işıqlandırılması məqsədi ilə 2020-ci il 11 fevral tarixində Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) məktub göndərilmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının “Azərbaycan dilinə tərcümə edilmiş Kiçik və orta müəssisələrin auditində Beynəlxalq Audit Standartlarının tətbiqinə dair təlimatın 2018-ci il versiyasının I və II cildlərinin tətbiqi barədə” 2020-ci il 17 mart tarixli 318/3 nömrəli Qərarının 2-ci bəndinin icrası ilə əlaqədar olaraq Azərbaycan dilinə tərcümə edilmiş Təlimatın elektron variantı 2020-ci il 19 mart tarixində xidməti istifadə üçün auditor təşkilatları və sərbəst auditorların elektron poçt ünvanlarına göndərilmişdir.

Palata sədrinin “Pandemiya şəraitində auditor xidmətinin qarşısında duran vəzifələrin həllinə dair” 2020-ci il 08 aprel tarixli 1/11 saylı Sərəncamına uyğun olaraq, Auditorlar Palatasında 2020-ci il 14 aprel tarixində auditor təşkilatlarına və sərbəst auditorlara “Pandemiya şəraitində auditor xidmətinin qarşısında duran problemlərin və vəzifələrin həllinə dair” distant vebinar keçirilmişdir. Vebinarda audit sahəsində mövcud vəziyyət, qarşıda duran problemlər və vəzifələrin həllinə dair peşəkar müzakirələr

aparılmış və təqdim edilən təklif və tövsiyələr əsasında İşçi Qərargahı tərəfindən “Pandemiyaya qarşı mübarizə və onun nəticələrinin aradan qaldırılmasına dair Azərbaycan Respublikası Auditorlar Palatasının Tədbirlər Planı”nın layihəsi hazırlanaraq təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasındakı innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında” 2019-cu il 10 yanvar tarixli 881 nömrəli Sərəncamının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən innovativ inkişaf sahəsində 2020-ci ilin I yarımili ərzində görülən işlər barədə məlumat 2020-ci il 14 iyul tarixində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına göndərilmişdir.

“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanundan irəli gələn öhdəliklərin yerinə yetirilməsinə görə İnzibati Xətalar Məcəlləsinə edilən əlavələrə dair hazırlanan şərh 2020-ci il 26 iyul tarixində auditor təşkilatları və sərbəst auditorların elektron poçt ünvanlarına göndərilmişdir.

# IV. AUDİTOR TƏŞKİLATLARININ VƏ SƏRBƏST AUDİTORLARIN 2020-Cİ İLİN YEKUNU ÜZRƏ FƏALİYYƏTİNƏ DAİR İCMAL-TƏHLİL

2020-ci ildən etibarən auditor təşkilatları və sərbəst auditorların fəaliyyətlərinə dair hesabatları auditorun şəxsi kabineti vasitəsi ilə qəbul olunmuşdur.

Hesabat dövrü ərzində 55 sərbəst auditorun və 116 auditor təşkilatının (o cümlədən 2 xarici auditor təşkilatının filial və nümayəndəliyi və 14 xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatı) auditor fəaliyyətini həyata keçirmək hüququ olmuşdur.

2020-ci il ərzində auditor fəaliyyətini həyata keçirmək hüququ verən 16 auditor təşkilatı və 2 sərbəst auditor öz ərizələrinə əsasən, 4 auditor təşkilatı isə şura qərarına əsasən icazələri müvəqqəti olaraq dayandırılmışdır (əlavə 1).

2020-ci il ərzində auditor fəaliyyətini həyata keçirmək hüququ verən 22 auditor təşkilatına və 2 sərbəst auditora icazə verilmişdir (əlavə 2).

### 2020-ci il üzrə auditor xidməti göstərilməsinə dair bağlanmış müqavilələr

2020-ci il üzrə 55 sərbəst auditor və 116 auditor təşkilatı tərəfindən Auditorlar Palatasına öz fəaliyyətlərinə dair hesabatlar təqdim edilmişdir. Təqdim edilmiş hesabatlara əsasən müəyyən edilmişdir ki, hesabat dövründə təsərrüfat subyektləri ilə 77,0 mln. manat məbləğində 5056 müqavilə bağlanmışdır. Bağlanmış müqavilələrdə böyük dördlük üzrə xüsusi çəkisi sayına görə 14,6% və məbləğinə görə 57,8%, xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə sayına görə 9,4% və məbləğinə görə 20,4%, yerli auditor təşkilatları üzrə sayına görə 51,5% və məbləğinə görə 18,1%, sərbəst auditorlar üzrə sayına görə 24,5% və məbləğinə görə 3,7% təşkil etmişdir.

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə bağlanmış müqavilələrin sayı 6451-dən 5056-ya qədər, yəni 1395 ədəd və ya 21,6% azalmış, məbləği isə 73,1 mln. manatdan 77,0 mln. manata qədər, yəni 3,9 mln. manat və ya 5,3% artmışdır (**Diaqram 1-2).**

*Auditor xidmətinin göstərilməsinə dair bağlanmış müqavilələrin sayı*




**Diaqram 1**

*Auditor xidmətinin göstərilməsinə dair bağlanmış müqavilələrin məbləğləri (mln.manatla)*




**Diaqram 2**

O cümlədən:

- Böyük dördlük üzrə müqavilələrin sayı 769-dan 739-a qədər, yəni 30 ədəd və ya 3,9%, məbləği 46,8 mln. manatdan 44,5 mln. manata qədər, yəni 2,3 mln. manat və ya 4,9% azalmışdır;

- Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə müqavilələrin sayı 540-dan 475-ə qədər, yəni 65 ədəd və ya 12,0% azalmış, məbləği 13,5 mln. manatdan 15,6 mln. manata qədər, yəni 2,1 mln.manat və ya 15,5% artmışdır;

- Yerli auditor təşkilatları üzrə müqavilələrin sayı 3750-dən 2601-ə qədər, yəni 1149 ədəd və ya 30,6% azalmış, məbləği isə 10,2 mln. manatdan 13,9 mln. manata qədər, yəni 3,7 mln. manat və ya 36,3% artmışdır;

- Sərbəst auditorlar üzrə müqavilələrin sayı 1392-dən 1241-ə qədər, yəni 151 ədəd və ya 10,8% azalmış, məbləği isə 2,6 mln. manatdan 2,8 mln. manata qədər, yəni 0,2 mln. manat və ya 7,7% artmışdır (***Diaqram 3-4***).

***Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin sayı***




***Diaqram 3***

Diaqram 3-də auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin sayının 2019-2020-ci illər üzrə müqayisəsi göstərilmişdir. Diaqramdan da göründüyü kimi 2020-ci ildə ötən il ilə müqayisədə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin sayında azalma müşahidə edilmişdir.

2019-2020-ci illər üzrə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin məbləğinin müqayisəsi aşağıdakı diaqramda öz əksini tapmışdır:

***Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin məbləği (mln.manatla)***




***Diaqram 4***

Diaqram 4-dən də göründüyü kimi 2020-ci il üzrə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin ümumi məbləğində artım müşahidə edilsə də, yalnız Böyük dördlük üzrə azalma müşahidə edilmişdir.

**2020-ci il üzrə auditor xidməti göstərilməsinə dair yerinə yetirilmiş müqavilələr**

2020-ci il ərzində bağlanmış müqavilələrdən 53,8 mln. manat məbləğində 4103-i yerinə yetirilmişdir.

Qeyd etmək lazımdır ki, 2019-cu il ilə müqayisədə 2020-ci ildə yerinə yetirilmiş müqavilələrin sayı 5205-dən 4103-ə qədər, yəni 1102 ədəd və ya 21,2%, məbləği 59,5 mln. manatdan 53,8 mln. manata qədər, yəni 5,7 mln. manat və ya 9,6% azalmış, orta məbləği isə 11,4 min manatdan 13,1 min manata qədər, yəni 1,7 min manat və ya 14,9% artmışdır (***Diaqram 5-6***).

***Auditor xidmətinin göstərilməsinə dair yerinə yetirilmiş müqavilələrin sayı***




***Diaqram 5***

***Auditor xidmətinin göstərilməsinə dair yerinə yetirilmiş müqavilələrin məbləği (mln.manatla)***




***Diaqram 6***

O cümlədən:

- Böyük dördlük üzrə yerinə yetirilmiş müqavilələrin sayı 677-dən 533-ə qədər, yəni 144 ədəd və ya 21,3%, məbləği 41,4 mln. manatdan 35,2 mln. manata qədər, yəni 6,2 mln. manat və ya 15,0% azalmış, orta məbləğ isə 61,2 min manatdan 66,1 min manata qədər, yəni 4,9 min manat və ya 8,0% artmışdır;
- Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə yerinə yetirilmiş müqavilələrin sayı 380-dən 273-ə qədər, yəni 107 ədəd və ya 28,2% azalmış, məbləği 7,6 mln. manatdan 8,3 mln. manata qədər, yəni 0,7 mln. manat və ya 9,2%, orta məbləğ isə 20,0 min manatdan 30,2 min manata qədər, yəni 10,2 min manat və ya 51,0% artmışdır;
- Yerli auditor təşkilatları üzrə yerinə yetirilmiş müqavilələrin sayı 2948-dən 2178-ə qədər, yəni 770 ədəd və ya 26,1%, məbləği 8,3 mln. manatdan 7,8 mln. manata qədər,

yəni 0,5 mln. manat və ya 6,0% azalmış, orta məbləğ isə 2,8 min manatdan 3,6 min manata qədər, yəni 0,8 min manat və ya 28,6% artmışdır;

- Sərbəst auditorlar üzrə yerinə yetirilmiş müqavilələrin sayı 1200-dən 1119-a qədər, yəni 81 ədəd və ya 6,8% azalmış, məbləği 2,3 mln. manatdan 2,6 mln. manata qədər, yəni 0,3 mln. manat və ya 13,0%, orta məbləğ isə 1,9 min manatdan 2,3 min manata qədər, yəni 0,4 min manat və ya 21,0% artmışdır ***(Diaqram 7-8).***

***Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən yerinə yetirilmiş müqavilələrin sayı***




***Diaqram 7***

***Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən yerinə yetirilmiş müqavilələrin məbləği (mln.manatla)***




***Diaqram 8***

**2020-ci il ərzində auditor xidməti növləri üzrə**
**yerinə yetirilmiş müqavilələr**

2020-ci il üzrə MHA (Maliyyə-təsərrüfat əməliyyatlarının qanunvericiliyə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin maliyyə (mühasibat) hesabatlarının auditi), NKA (Nizamnamə kapitalının formalaşdırılmasının auditi), VHA (Maliyyə-təsərrüfat əməliyyatlarının vergi qanunvericiliyinə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin vergi hesabatlarının auditi), ƏQA (Əmlakın qiymətləndirilməsinin düzgünlüyünün təsdiqi), MUX (Müəssisə və təşkilatlarda mühasibat xidmətlərinin göstərilməsi), MX (Mühasibat və vergi uçotu, vergiqoyma üzrə ayrı-ayrı məsələlər üçün məsləhət xidmətinin göstərilməsi), SDOSA (Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan audit), DX (Digər auditor (əlaqəli) xidmətləri) auditor xidmətinin növlərinə görə yerinə yetirilmiş müqavilələr:

Böyük dördlük üzrə 187 ədəd MHA, məbləği 21,8 mln. manat; 1 ədəd VHA, məbləği 15,5 min manat; 1 ədəd ƏQA, məbləği 44,1 min manat, 9 ədəd MUX, məbləği 171,6 min manat; 180 ədəd MX, məbləği 6,3 mln. manat; 134 ədəd DX, məbləği 4,1 mln. manat;

Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə 170 ədəd MHA, məbləği 3,1 mln. manat; 3 ədəd NKA, məbləği 10,8 min manat, 18 ədəd ƏQA, məbləği 560,3 min manat; 40 ədəd MUX, məbləği 1,3 mln. manat; 13 ədəd MX, məbləği 2,9 mln. manat; 4 ədəd SDOSA, məbləği 148,4 min manat; 5 ədəd DX, məbləği 5,2 min manat;

Yerli auditor təşkilatları üzrə 1787 ədəd MHA, məbləği 5,5 mln. manat; 74 ədəd NKA, məbləği 164,6 min manat; 54 ədəd VHA, məbləği 419,7 min manat; 66 ədəd ƏQA, məbləği 232,5 min manat; 49 ədəd MUX, məbləği 180,9 min manat; 41 ədəd MX, məbləği 754,3 min manat; 9 ədəd SDOSA, məbləği 16,0 min manat; 85 ədəd DX, məbləği 475,3 min manat;

Sərbəst auditorlar üzrə 988 ədəd MHA, məbləği 1,9 mln. manat; 44 ədəd NKA, məbləği 75,0 min manat; 8 ədəd VHA, məbləği 36,4 min manat; 30 ədəd ƏQA, məbləği 153,6 min manat; 9 ədəd MUX, məbləği 93,8 min manat; 9 ədəd MX, məbləği 37,9 min manat; 85 ədəd DX, məbləği 182,6 min manat ***(Diaqram 9).***

***2020-ci il üzrə göstərilmiş auditor xidməti növlərinin göstəriciləri***



*Diaqram 9*

**2019-2020-ci illər üzrə yerinə yetirilmiş müqavilələrin audit xidməti növlərinin % dərəcələri:**

| 2019 | | 2020 | |
|---|---|---|---|
| MHA - | 73,8% | MHA - | 76,4% |
| NKA - | 3,3% | NKA - | 2,9% |
| VHA - | 0,8% | VHA - | 1,6% |
| ƏQA - | 4,1% | ƏQA - | 2,8% |
| MUX - | 6,1% | MUX - | 2,6% |
| MX - | 2,8% | MX - | 5,9% |
| SDOSA – | 0,6% | SDOSA – | 0,3% |
| DX - | 8,5% | DX - | 7,5% |




*Diaqram 10*

**2020-ci il üzrə auditor xidməti göstərilməsinə dair ləğv olunmuş müqavilələr**

2020-ci il ərzində mövcud müqavilələrdən 702,5 min manat məbləğində 63-ü ləğv edilmişdir.

O cümlədən:

- Böyük dördlük üzrə 466,2 min manat dəyərində 11-i;
- Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə 160,7 min manat dəyərində 4-ü;
- Yerli auditor təşkilatları üzrə 46,9 min manat dəyərində 26-sı;
- Sərbəst auditorlar üzrə 28,6 min manat dəyərində 22-si ləğv edilmişdir.

**2020-ci il üzrə auditor xidməti göstərilməsinə dair yerinə yetirilməmiş müqavilələr**

2020-ci il ərzində mövcud müqavilələrdən 23,4 mln.manat məbləğində 890-ı yerinə yetirilməmişdir.

O cümlədən:

- Böyük dördlük üzrə 7,9 mln. manat dəyərində 214-ü;
- Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə 9,3 mln. manat dəyərində 197-si;
- Yerli auditor təşkilatları üzrə 5,0 mln. manat dəyərində 339-u;
- Sərbəst auditorlar üzrə 209,1 min manat dəyərində 140-ı yerinə yetirilməmişdir.

**Məcburi və könüllü audit subyektləri üzrə yerinə yetirilmiş müqavilələr**

2020-ci il ərzində yerinə yetirilmiş 4103 müqavilədən 2198-i məcburi auditin subyekti, 1905-i isə könüllü auditin subyekti olmuşdur. Bu da uyğun olaraq 53,6% və 46,4% təşkil etmişdir ***(Diaqram 11).***

***2020-ci il ərzində icra olunmuş müqavilələrin məcburi və könüllü audit subyektləri üzrə müqayisəsi***




***Diaqram 11***

2020-ci il ərzində respublika üzrə 4512 məcburi audit subyektindən 2198-i (48,7%) auditdən keçmişdir ***(Cədvəl 1).***

***Cədvəl 1***

| Məcburi audit subyektinin təşkilati-hüquqi forması | Respublika üzrə məcburi audit subyektlərinin sayı | 2020-ci il üzrə məcburi auditdən keçən təsərrüfat subyektlərinin sayı | auditdən keçmə %-i |
|---|---|---|---|
| **Səhmdar cəmiyyətləri** | 253 | 205 | 81,0% |
| **Məhdud məsuliyyətli cəmiyyətlər** | 2548 | 1627 | 63,8% |
| **Bələdiyyələr** | 1608 | 306 | 19,0% |
| **Banklar** | 26 | 26 | 100,0% |
| **Sığorta təşkilatları** | 22 | 22 | 100,0% |
| **Siyasi partiyalar** | 55 | 12 | 21,8% |
| **CƏMİ** | **4512** | **2198** | **48,7%** |

Qeyd edək ki, 2019-cu ildə respublika üzrə 46.282,0 məcburi audit subyektindən 3745-i (8,09%) auditdən keçmişdir.

Məlumat üçün bildiririk ki, 2018-ci il 5 fevral tarixli 1816 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında qərarına əsasən, sahibkarların mikro, kiçik, orta və ya iri sahibkar kimi müəyyənləşdirilməsi üçün "işçilərin orta siyahı sayı" və "illik gəlir" meyar göstəricilərindən daha yüksək olanı əsas götürülür. Bunun da nəticəsi olaraq, 2020-ci il üzrə icmal-təhlil hazırlanarkən məhz bu meyardan istifadə edilmişdir.

## Yerinə yetirilmiş müqavilələr üzrə verilmiş rəylər

2020-ci il ərzində yerinə yetirilmiş müqavilələr üzrə aparılan auditlərin nəticələrinə dair verilmiş rəylərin növləri üzrə təhlil nəticəsində aşağıdakı cədvəldə qeyd olunmuşdur ***(Cədvəl 2).***

*Cədvəl 2*

| Aparılan auditlərin nəticələrinə dair verilmiş rəylərin növləri üzrə təhlili | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **Müsbət rəylərin sayı (ədədlə)** | | **Şərti müsbət rəylərin sayı (ədədlə)** | | **Mənfi rəylərin sayı (ədədlə)** | | **Rəy verilməsindən imtina** | |
| | **2019** | **2020** | **2019** | **2020** | **2019** | **2020** | **2019** | **2020** |
| **Böyük dördlük üzrə** | 326 | 330 | 19 | 15 | 0 | 0 | 3 | 1 |
| **Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə** | 285 | 175 | 14 | 17 | 0 | 0 | 0 | 0 |
| **Yerli auditor təşkilatları üzrə** | 2143 | 1684 | 379 | 199 | 47 | 22 | 13 | 14 |
| **Sərbəst auditorlar üzrə** | 942 | 880 | 499 | 78 | 65 | 3 | 22 | 1 |
| **CƏMİ** | **3696** | **3069** | **911** | **309** | **112** | **25** | **38** | **16** |

Cədvəl 2-də 2019-2020-ci illər ərzində yerinə yetirilmiş müqavilələr üzrə aparılan auditlərin nəticələrinə dair verilmiş rəylərin növlərinin statistikası qeyd edilmişdir. Aparılmış təhlillin nəticəsi olaraq, 2019-2020-ci illərdə Böyük Dördlük və Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları tərəfindən aparılan auditlərin nəticələrinə dair mənfi rəylərin olmaması müşahidə edilmişdir. Bundan başqa, 2020-ci ildə Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları tərəfindən aparılan auditlərin nəticələrinə dair rəy verilməsindən imtina halları aşkar edilməmişdir.

## ƏLAVƏLƏR

### İcazələri müvəqqəti olaraq dayandırılmış auditor təşkilatları və sərbəst auditorların siyahısı *(Əlavə 1)*

***Öz ərizələrinə əsasən fəaliyyəti müvəqqəti olaraq dayandırılmış auditor təşkilatları və sərbəst auditorlar***

1. “Alfa-Audit" məhdud məsuliyyətli cəmiyyəti

2. "AVİZO AUDİT" məhdud məsuliyyətli cəmiyyəti
3. “BAKI Audit Konsaltinq” məhdud məsuliyyətli cəmiyyəti
4. “Çinar Audit Konsalting” məhdud məsuliyyətli cəmiyyəti
5. “Finans Audit” məhdud məsuliyyətli cəmiyyəti
6. “Econom Audit” məhdud məsuliyyətli cəmiyyəti
7. “İqtisadçı Audit” məhdud məsuliyyətli cəmiyyəti
8. "JPA İnternational Azərbaycan" məhdud məsuliyyətli cəmiyyəti
9. “Legal Audit” məhdud məsuliyyətli cəmiyyəti
10. “Master in Finans and Accountinq Services”məhdud məsuliyyətli cəmiyyəti
11. “MS AUDİT” məhdud məsuliyyətli cəmiyyəti
12. “Rahim Alizada Account Tax and Consulting” məhdud məsuliyyətli cəmiyyəti
13. "RM AUDİT" məhdud məsuliyyətli cəmiyyəti
14. “VİZİON GROUP” məhdud məsuliyyətli cəmiyyəti
15. “Xəzər-Audit 2019” məhdud məsuliyyətli cəmiyyəti
16. “ Zaman - Audit” məhdud məsuliyyətli cəmiyyəti
17. Əliyev Ruslan Şirvan oğlu
18. Qarayev Vüsal Məmmədrasul oğlu

***Şura qərarlarına əsasən fəaliyyəti müvəqqəti olaraq dayandırılmış auditor təşkilatları***

1. “EON Audit” məhdud məsuliyyətli cəmiyyəti
2. “İnter Audit” auditor təşkilatı
3. “Nahid Audit” məhdud məsuliyyətli cəmiyyəti
4. “PREMİER AUDİT KONSALTİNQ” məhdud məsuliyyətli cəmiyyəti

**Auditor fəaliyyətini həyata keçirmək üçün yeni icazələr almış auditor təşkilatları və sərbəst auditorların siyahısı *(Əlavə 2)***

1. "ACCOUNTAL FINANS BIZNES KONSALTINQ"məhdud məsliyyətli cəmiyyət
2. "ATC SERVICES" məhdud məsuliyyətli cəmiyyəti
3. "AZFİNANCE AND CONSULTİNG" məhdud məsuliyyətli cəmiyyəti
4. “AZƏRİ AUDİT SERVİS” məhdud məsuliyyətli cəmiyyəti
5. “CONSULTING SERVICE OF BAKU” məhdud məsuliyyətli cəmiyyəti
6. "ECONOMİC-CHA” məhdud məsuliyyətli cəmiyyəti
7. "EKOL AUDIT" məhdud məsuliyyətli cəmiyyəti
8. "Financial Academy Audit and Consulting "məhdud məsuliyyətli cəmiyyəti
9. "GINZA AUDİT" məhdud məsuliyyətli cəmiyyəti
10. "Global and Legal Audit"məhdud məsuliyyətli cəmiyyəti
11. “HN ECONOMY AND TAX SERVICES LLC” məhdud məsuliyyətli cəmiyyəti
12. "HS Consulting" məhdud məsuliyyətli cəmiyyə
13. "İnteraudit Consulting"məhdud məsuliyyətli cəmiyyəti
14. “İNTERNATİONAL CONSULTİNG AND SUPPORT SERVİCES” məhdud məsuliyyətli cəmiyyəti

15. "Invest Finance" məhdud məsuliyyətli cəmiyyəti
16. "Macron Group Azerbaijan"məhdud məsuliyyətli cəmiyyəti
17. "PROQRESS AUDIT" məhdud məsuliyyətli cəmiyyəti
18. "RF TAX CONSULTING 2015"məhdud məsuliyyətli cəmiyyəti
19. “SME AUDIT” məhdud məsuliyyətli cəmiyyəti
20. "S.L.S Audit-Consulting Xidməti" məhdud məsuliyyətli cəmiyyəti
21. “UHY Audit” məhdud məsuliyyətli cəmiyyəti
22. “Yeni Zaman Audit” məhdud məsuliyyətli
23. Cəfərov Elxan Feyruz oğlu
24. Əlizadə İlqar Rasim oğlu

# V. ŞƏFFAFLIĞIN TƏMİNATI VƏ KORRUPSİYAYA QARŞI MÜBARİZƏ

**Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində tədbirlər üzrə:**

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair ətraflı məlumatlar bu hesabatın III “Auditorlar Palatasının dövlət proqramlarında iştirakı” bölməsində verilmişdir (səh 8-12).

Auditorlar Palatasının şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə istiqamətində səlahiyyətli dövlət orqanları ilə əməkdaşlıq əlaqələri dövlət sifarişləri formasında 2020-ci ildə də davam etdirilmişdir. Belə ki, həmin orqanlardan daxil olmuş 13 müraciət əsasında yoxlamaların aparılmasına sərbəst auditorlar və auditor təşkilatlarının nümayəndələri cəlb olunmuş, başa çatmış yoxlamaların nəticələrinə dair tərtib olunmuş materialların aidiyyatı orqanlara təqdim edilməsi təmin olunmuşdur. Bu müraciətlər Azərbaycan Respublikası Bakı Apellyasiya Məhkəməsindən, Azərbaycan Respublikası 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsindən, Bakı şəhəri Nizami Rayon Məhkəməsindən, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsindən, Bakı şəhəri Nəsimi Rayon Məhkəməsindən, Bakı şəhəri Sabunçu Rayon Məhkəməsindən, Azərbaycan Respublikası Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuşdur.

# VI. AUDİTOR XİDMƏTİNİN KEYFİYYƏTİNƏ KƏNAR NƏZARƏT

Auditorlar Palatası Şurasının 2019-cu il 28 dekabr tarixli 316/3 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi üzrə 2020-ci il üçün Plan-qrafik”ə əsasən Auditorlar Palatası Şurası yanında Keyfiyyətə nəzarət üzrə Komitənin müfəttişləri tərəfindən 2020-ci ildə 44 auditor təşkilatının (o cümlədən, 6 auditor təşkilatının plandankənar) və 23 sərbəst auditorun (o cümlədən, 3 sərbəst auditorun plandankənar) apardıqları auditlərin keyfiyyətinin Beynəlxalq Audit Standartlarının tələblərinə uyğunluğunun monitorinqi planlaşdırılsa da, Pandemiya ilə əlaqədar 8 auditor təşkilatının (o cümlədən, 2 auditor təşkilatının plandankənar) və 3 sərbəst auditorun (o cümlədən, 2 sərbəst auditorun plandankənar) fəaliyyətinin monitorinqi aparılmış, yerdə qalan 36 auditor təşkilatının (o cümlədən, 4 auditor təşkilatının plandankənar) və 20 sərbəst auditorun (o cümlədən, 1 sərbəst auditorun plandankənar) monitorinqinin aparılması 2021-ci ilin Plan-qrafikinə daxil edilmişdir.

2020-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinin monitorinqinin nəticələri aşağıdakı kimi qiymətləndirilmişdir:

- 5 auditor təşkilatı qənaətbəxş – 4 balla;
- 1 auditor təşkilatı və 2 sərbəst auditor qismən-qənaətbəxş – 3 balla;
- 2 auditor təşkilatı və 1 sərbəst auditor qeyri-qənaətbəxş – 2 balla;

Aparılan yoxlamaların nəticələri Palatanın Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitədə, bəziləri isə Palatanın Şurasında baxılmış və müvafiq qərarlar qəbul edilmişdir.

Auditorlar Palatasının və Palata Şurasının iş planlarına uyğun olaraq, Auditin keyfiyyətinə kənar nəzarət sahəsində 2020-ci il üzrə aşağıdakı işlər görülmüşdür:

- Auditorlar Palatası Şurasının 2018-ci il 27 dekabr tarixli 307/6 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi üzrə 2020-ci il üçün Plan-qrafik”ə əsasən 2020-ci il ərzində aparılan araşdırmanın nəticələrinə dair hazırlanmış İcmal-təhlil baxılmaq üçün Palatanın rəhbərliyinə təqdim edilmişdir.

- Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 nömrəli qərarı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar”a uyğun olaraq, Palata Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin müfəttişlərinin siyahısının təsdiqi barədə qərar layihəsi baxılmaq üçün rəhbərliyə təqdim olunmuş və Şuranın 2019-cu il 28 dekabr tarixli 316/2 saylı qərarı ilə təsdiq edilmişdir.

- “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi üzrə 2021-ci il üçün Plan-qrafik”in layihəsi və “Azərbaycan Respublikası Auditorlar Palatası Şurası yanında Keyfiyyətə nəzarət üzrə

komitənin müfəttişlərinin siyahısının təsdiqi” barədə qərar layihələri hazırlanmış və Şurada müzakirə olunmaq üçün 2020-ci il 25 dekabr tarixində Palatanın rəhbərliyinə təqdim edilmişdir. Həmin qərar layihələri 2020-ci il 23 fevral tarixində müzakirə olunmuş, müvafiq olaraq 328/3 və 328/7 saylı qərarları ilə təsdiq edilmişdir.

- "Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin müfəttişlərinin siyahısının təsdiq edilməsi barədə" 2020-ci il 23 fevral tarixli 328/3 nömrəli və “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2021-ci il üçün Plan-qrafik”in təsdiq edilməsi barədə" 328/7 nömrəli qərarları Palatanın internet saytında yerləşdirilmişdir.

- Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə nəzarətin həyata keçirilməsi üzrə 2020-ci il ərzində aparılmış monitorinqin nəticələrinə dair tərtib edilmiş İcmal 2021-ci il 23 fevral tarixində Palatanın Şurasında müzakirə edilmiş, 328/6 nömrəli qərarı ilə qəbul edimiş və Palatanın internet saytında yerləşdirilmişdir.

## VII. AUDİTOR KADRLARININ HAZIRLANMASI VƏ PEŞƏ-İXTİSAS SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ

Azərbaycanda beynəlxalq tələblərə uyğun fəaliyyət göstərməyə qadir olan auditor kadrlarının hazırlanması, onların peşə-ixtisas səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi məsələləri Palatanın fəaliyyətində mühüm istiqamətlərdən birini təşkil edir.

### Auditor adı almaq üçün imtahanların keçirilməsi

Auditorlar Palatası üzvlərinin 2020-ci və 2021-ci ilin I yarımili ərzində icazələrinin qüvvədəolma müddətinin başa çatması ilə əlaqədar qrafik hazırlanmış, Palatanın internet səhifəsində elanlar yerləşdirilmiş və auditor adı almaq üçün müraciət edən şəxslərin sənədləri toplanmışdır.

Azərbaycan Respublikası Auditorlar Palatası sədirinin "Azərbaycan Respublikasının Auditorlar Palatasında auditor adı almaq üçün imtahanların onlayn qaydada keçirilməsi barədə" 2020-ci il 14 iyul tarixli 1/19 saylı sərəncamına uyğun olaraq, Auditorlar Palatasının İmtahan Komissiyası və Kadr hazırlığı şöbəsi tərəfindən 2020-ci il 30 iyul tarixində auditor fəaliyyəti ilə məşğul olmaq hüququ verən icazələrin qüvvədəolma müddətinin başa çatması ilə əlaqədar bir qrup auditorlara və auditor adı almaq üçün müraciət etmiş şəxslərə onlayn imtahan keçirilmişdir. İmtahana ümumi olaraq 15 nəfər namizəd sənədlərini təqdim etmişdir. İmtahanların nəticələrinə görə 1 nəfər yeni auditor adı almaq istəyən şəxs imtahanda iştirak etməmiş, 1 nəfər icazəsinin qüvvədəolma müddəti başa çatmış və 13 nəfər yeni auditor adı almaq üçün imtahanda iştirak etmiş şəxslər müvəffəq nəticə əldə etmişdir.

Növbəti onlayn imtahan 2020-ci il 25 dekabr tarixində təşkil edilmişdir. İmtahanın nəticələrinə görə 2 nəfər icazələrinin müddəti başa çatmış, 10 nəfər isə yeni auditor adı almaq üçün imtahanda iştirak etmiş və hər biri müvəffəq nəticə əldə etmişdir.

### Auditorların  ixtisasartırma kurslarının keçirilməsi

Palatanın Kadr hazırlığı şöbəsi tərəfindən 2020-ci il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının layihəsi hazırlanmış və Palata Şurasının 2020-ci il 20 may tarixli 320/3 saylı qərarı ilə təsdiq edilmişdir.

Palatanın 2020-ci  il üzrə iş planına uyğun olaraq təsdiq edilmiş siyahı üzrə I, II və III qrup auditorların ixtisasartırma kurslarında iştirak edilməsi ilə bağlı onlara  2020-ci il 24 avqust tarixində elektron xəbərdarlıq məktubları göndərilmişdir. I, II və III qrup (103 nəfər) auditorlara  2020-ci il 7 sentyabr tarixindən 24 sentyabr tarixinədək ixtisasartırma kursları təşkil edilmişdir. Kursların nəticələrinə dair  2020-ci il 25 sentyabr tarixində test imtahanı keçirilmişdir. 25 nəfər imtahanlarda iştirak etməmiş, 78 nəfər imtahanda iştirak etmiş şəxslərdən 72 nəfəri müvəffəq, 6 nəfər isə qeyri müvəffəq bal toplamışdır. Test imtahanında müvəffəq nəticə göstərənlərə sertifikatlar təqdim olunmuşdur.

Həmin bəndə müvafiq olaraq IV, V, VI, VII qrup (135 nəfər) auditorların ixtisasartırma kurslarında iştirak etməsi ilə bağlı onlara 2020-ci il 1 oktyabr tarixində elektron xəbərdarlıq məktubları göndərilmişdir. 2020-ci il 12 oktyabr tarixindən 29 oktyabr tarixinədək həmin auditorlar üçün ixtisasartırma kursu təşkil edilmişdir. Kursların nəticələrinə dair 2020-ci il 29 oktyabr tarixində test imtahanı keçirilmişdir. 45 nəfər imtahanda iştirak etməmiş, 93 nəfər imtahanda iştirak etmiş auditorlardan 86 nəfəri müvəffəq, 7 nəfər isə qeyri müvəffəq nəticə göstərmişdir. Test imtahanını müvəffəq nəticə göstərənlərə sertifikatlar təqdim olunmuşdur.

**Daxili auditor kurslarının keçirilməsi**

Palatanın 2020-ci il üzrə iş planının "Auditorlar Palatasında ödənişli kursların təşkili" bəndinin icrasını təmin etmək məqsədilə, Kadr hazırlığı şöbəsi tərəfindən "Təşkilatlarda Daxili nəzarətin qurulması və struktur vahidləri (idarə və şöbə) üzrə auditin təşkili" proqramı əsasında növbəti daxili auditor kadrlarının hazırlanması üzrə hazırlıq kurslarının keçirilməsi ilə əlaqədar müəssisələrin elektron poçt ünvanlarına məktublar göndərilmiş və olunan müraciətlər üzrə 2020-ci il 10 fevral - 6 mart tarixlərində 10 nəfər müraciət etmiş şəxsə, "Daxili audit və daxili nəzarət" proqramı əsasında 2020-ci il 8-30 dekabr tarixlərində 7 nəfər müraciət etmiş şəxslərə, "Daxili audit testləri və sübutlarının toplanması" proqramı əsasında 2020-ci il 9-28 dekabr tarixlərində isə 4 nəfər müraciət etmiş şəxslərə kurslar keçirilmişdir. Kursların sonunda iştirakçıların bilik səviyyəsinin yoxlanması üçün imtahan keçirilmiş və 21 nəfər imtahanı müvəffəqiyyətlə bitirmişdir.

# VIII. KONFRANSLAR, SİMPOZİUMLAR, SEMİNARLAR VƏ DİGƏR TƏDBİRLƏR

**Azərbaycan Respublikasının Auditorlar Palatasında 2020-ci il 24 yanvar tarixində yeni üzvlüyə qəbul edilmiş şəxslərlə görüş keçirilmişdir.**

Görüş iştirakçılarına ölkəmizdə auditin nüfuzundan danışılmış və bu peşənin bir daha əhəmiyyəti qeyd edilərək vurğulanmışdır ki, üzvlər öz fəaliyyətlərində Beynəlxalq Audit Standartlarının və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının, sahəvi audit proqramlarının, sahibkarlıq fəaliyyətinə dair normativ hüquqi sənədlərin, peşə etikası norma və standartlarının və beynəlxalq peşəkar qurumların normativ tələblərinə riayət edilməlidir. Həmçinin onlara maliyyə (mühasibat), vergi, statistik və.s. hesabatlarının tərtibi və təqdim edilməsi, mühasibat uçotunun qurulmasına dair, auditor xidməti göstərilməsi üzrə müvafiq sənədlərin uçotu, sərbəst auditorların və auditor təşkilatlarının fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatların tərtibi və təqdim edilməsi, vergi bəyannamələrinin tərtibi və təqdim edilməsi, hər il auditorların ixtisasartırma kurslarında və Palatanın təşkil etdiyi tədbirlərdə iştirak etməsi, nəzarət kitabçasının istifadə edilməsi və Palataya ödənilməli olan üzvlük haqqının vaxtında hesablanıb ödənilməsi kimi tövsiyələr verilmişdir. Üzvlərə informasiya-kommunikasiya texnologiyalarından istifadə izah olunmuş, audit sahəsi üzrə müxtəlif maarifləndirici materiallar təqdim edilmiş, eyni zamanda yeni nəşr olunmuş "Peşə Etika Məcəlləsi Standartları" kitabı da öz fəaliyyətlərində istifadə edilməsi üçün onlara təqdim edilmişdir.

Görüşdə yeni üzvlüyə qəbul olunmuş auditorlar çıxış edərək belə bir tədbirin keçirilməsinə və onların üzvlüyə qəbul edildiklərinə görə Palatanın rəhbərliyinə minnətdarlıqlarını bildirdilər və öz peşəkar fəaliyyətlərində Auditorlar Palatasının imicini daim yüksəkdə saxlayacaqlarını və auditor adına xələl gətirən hərəkətlərə yol verməyəcəklərini bildirmişlər.



**Azərbaycan Respublikasının Auditorlar Palatasında 2020-ci il 25 fevral-02 mart tarixlərində auditorlar üçün "PEŞƏKAR MÜHASİBLƏRİN BEYNƏLXALQ ETİKA MƏCƏLLƏSİ" mövzusunda silsilə seminarlar keçirilmişdir**

Ölkəmizdə uğurla həyata keçirilən iqtisadi islahatlara dəstək verilməsi, şəffaflığın artırılması və hesabatlılığın yüksək səviyyədə qurulması, vergidən yayınma hallarının qarşısının alınması sahəsində qabaqcıl təcrübənin tətbiqi və bu sahədə sahibkarlara, iş adamlarına, müəssisə və təşkilatlara metodoloji dəstək göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Auditorlar Palatasında auditorlar üçün peşə etikasının fundamental prinsipləri və davranış standartlarının tətbiqinə dair "PEŞƏKAR MÜHASİBLƏRİN BEYNƏLXALQ ETİKA MƏCƏLLƏSİ" mövzusunda seminar keçirilmişdir.

Seminarı Auditorlar Palatasının Şurası yanında Etika, mübahisələr və intizam komissiyasının sədri, Sərbəst auditor İbiş Əliyev və Beynəlxalq Audit Standartları və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə komitənin sədri, "ANR Audit" MMC-nin direktoru Namiq Abbaslı açaraq iştirakçılara seminarın əhəmiyyətindən danışdılar və öz tövsiyələrini çatdırdılar.

Daha sonra Auditorlar Palatasının Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri, "TNM Audit" MMC-nin direktoru Nəcəf Talıbov "Peşəkar Mühasiblərin Etika Məcəlləsi və Məcəllənin 2016-cı il nəşrinin məzmununa edilmiş dəyişiklər" və "Beynəlxalq Müstəqillik Standartları" mövzularında ətraflı çıxış edərək iştirakçılara öz mülahizələrini çatdırmış və sonda iştirakçılar tərəfindən verilən suallar cavablandırılmış və geniş müzakirə aparılmışdır.





**Azərbaycan Respublikasının Auditorlar palatasında 2020-ci il 14 aprel tarixində "Pandemiya şəraitində auditor xidmətinin qarşısında duran problemlərin və vəzifələrin həllinə dair" vebinar keçirilmişdir**

COVİD-19-un yayıldığı bir şəraitdə yaranmış vəziyyət iqtisadiyyatda şəffaflığın təmin olunmasında, kölgə iqtisadiyyatına qarşı mübarizədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarının yerinə yetirilməsində, iqtisadi resurslardan səmərəli istifadə edilməsində, iqtisadi təhlükəsizliyin təmin olunmasında əvəzedilməz önəm kəsb edən və maliyyə hesabatlarının şəffaflığının əsas

təminatçılarından olan auditor peşəsi - müstəqil audit üçün də təsirsiz ötüşməmişdir. Bu həm də bizim xidmətin sifarişçiləri olan təsərrüfat subyektlərinin üzləşdikləri mürəkkəb durumla əlaqədardır. Hazırki şəraitdə auditorların öz vəzifələrinin və öhdəliklərinin layiqincə yerinə yetirmələrinə dəstək verilməsi məqsədilə Auditorlar Palatası tərəfindən kompleks tədbirlər görülməkdədir. Belə ki, yeni dövrün çağırışları işimizdə mütərəqqi və innovativ metodların tətbiqini, yeni prosedurlardan bəhrələnməyi, aparılan auditlərin Beynəlxalq Audit Standartlarına, Auditorların Peşə Etika Məcəlləsinə və digər normativ-hüquqi sənədlərin tələblərinə uyğunluğunu, ən əsası isə auditor xidmətinin keyfiyyətinin və peşənin imicinin yüksədilməsinə nail olmağı zəruri edir. Bu məqsədlə Auditorlar Palatası sədrinin 2020-ci il 8 aprel tarixli "Pandemiya şəraitində auditor xidmətinin qarşısında duran vəzifələrin həllinə dair" Sərəncamı imzalanmışdır. Sərəncamın məqsədi müasir şəraitdə ölkədə müstəqil auditin qarşısında duran problemlərin müəyyənləşdirilməsi, bu problemlərin operativ və səmərəli həll edilməsi üzrə yeni dövrün çağırışlarına uyğun tövsiyələrin işlənib hazırlanması, Auditorlar Palatasının üzvlərinə əməli köməkliyin göstərilməsi, Palata üzvlərindən daxil olan təklif və tövsiyələrin təxirə salınmadan öyrənilməsi, həll edilməsi və zəruri hallarda müvafiq mərkəzi icra hakimiyyəti orqanları qarşısında qaldırılması, pandemiya dövründə qabaqcıl xarici təcrübənin Azərbaycan auditində tətbiqini təmin etmək təşkil edir. Sərəncama müvafiq olaraq Auditorlar Palatasında İşçi Qərargahı yaradılmışdır. Həmin Qərargah Auditorlar Palatasının üzvləri ilə distant əlaqə yaratmaqla auditor peşəsi üçün vacib hesab edilən məsələləri öyrənir və operativ qərarların qəbulu edilməsi üçün müvafiq işləri həyata keçirir.

Ölkəmizdə uğurla həyata keçirilən və yaxın zamanlarda müsbət nəticələrin şahidi olacağımız iqtisadi siyasətin reallaşdırılması istiqamətində ölkə Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi altında gördüyü işlərə dəstək və bu dəstəyin səmərəliliyinin təmin edilməsi məqsədilə, Auditorlar Palatası tərəfindən audit və mühasibat üzrə beynəlxalq qurumların, habelə xarici dövlətlərin müvafiq tənzimləyicilərinin təcrübəsi diqqətlə öyrənilir. Eyni zamanda milli iqtisadiyyatın xüsusiyyətləri nəzərə alınmaqla lokal tədbirlərin tətbiqi sahəsində də araşdırmalar aparılır. Bu istiqamətdə nəticəli tədbirlərin həyata keçirilməsi zamanı milli audit kadrlarının – auditor təşkilatlarının əməkdaşlarının və sərbəst auditorların təklif və tövsiyələri bizim üçün böyük əhəmiyyət kəsb edir. Bu məqsədlə Auditorlar Palatası tərəfindən auditor təşkilatalarına və sərbəst auditorlara "Pandemiya şəraitində auditor xidmətinin qarşısında duran problemlərin və vəzifələrin həllinə dair" vebinar keçirilmişdir. İşgüzar şəraitdə keçən vebinarda audit sahəsində mövcud vəziyyət, qarşıda duran problemlər və vəzifələrin həllinə dair peşəkar müzakirələr aparılmışdır.

Vebinarın gedişində qərara alınmışdır ki, Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının və sərbəst auditorların təqdim etdikləri təklif və tövsiyələr Palata tərəfindən "Pandemiyaya qarşı mübarizə və onun nəticələrinin aradan qaldırılmasına dair

hazırlancaq Tədbirlər Planı”nda əks etdirilsin və həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlər görülsün.



**Azərbaycan Respublikasının Auditorlar Palatasında 2020-ci ilin 23 aprel tarixində “Pandemiya şəraitində beynəlxalq təcrübə nəzərə alınmaqla auditin aparılması yolları” mövzusunda vebinar keçirilmişdir**

Auditorlar Palatası tərəfindən 2020-ci il 14 aprel tarixində auditor təşkilatalarına və sərbəst auditorlara “Pandemiya şəraitində auditor xidmətinin qarşısında duran problemlərin və vəzifələrin həllinə dair” keçirilmiş vebinarda audit sahəsində mövcud vəziyyət, qarşıda duran problemlər və vəzifələrin həllinə dair təqdim edilən təklif və tövsiyələr əsasında Palata sədrinin 2020-ci il 15 aprel tarixli 1/12 saylı Sərəncamı ilə “Pandemiyaya qarşı mübarizə və onun nəticələrinin aradan qaldırılmasına dair Azərbaycan Respublikasının Auditorlar Palatasının Tədbirlər Planı” təsdiq edilmişdir. Həmin Tədbirlər Planına uyğun olaraq Auditorlar Palatasında yaradılmış İşçi Qərargahı tərəfindən kompleks tədbirlərin icrasına başlanılmış, eyni zamanda auditor təşkilatlarına və sərbəst auditorlara “Pandemiya şəraitində beynəlxalq təcrübə nəzərə alınmaqla auditin aparılması yolları” mövzusunda vebinar keçirilmişdir. Vebinarda Palatanın İcraçı direktoru, İşçi Qərargahın rəhbəri Səbuhi Gülməmmədov koronavirus dövründə pandemiyaya qarşı mübarizədə audit sahəsində bu günə qədər Auditorlar Palatasının gördüyü işlər barədə geniş məlumat vermişdir. Sonra vebinarın mövzusu ətrafında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri, “TNM Audit” MMC-nin direktoru Nəcəf Talıbov, “Alfa-Audit” QSC-nin auditoru Aygün Səfərova və Beynəlxalq Audit Standartları və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə komitənin üzvü, “SR Audit Solutions” MMC-nin direktoru Səftər Vəlizadə çıxış edərək pandemiya şəraitində beynəlxalq təcrübə nəzərə alınmaqla auditin aparılması yollarına və sahibkarlıq subyektlərinin bütün növ əməliyyatlarının (bank transaksiyalarının, təsərrüfat, idxal-ixrac, alqı-satqı və digər) onlayn toplandığı və bütün aidiyyətli tərəflərin əlçatanlığı təmin olunduğu vergi, maliyyə və digər hesabatların tərtibinə imkan verən şəffaf (vahid)

bazanın yaradılmasına dair öz fikirlərini dinləyicilərə çatdırmışlar. Vebinarda mövzu ətrafında mövcud vəziyyət, qarşıda duran problemlər və onların həllinə dair peşəkar müzakirələr aparılmışdır.

Vebinarın gedişində qərara alınmışdır ki, Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının və sərbəst auditorların təqdim etdikləri təklif və tövsiyələr Palata tərəfindən nəzərə alınsın və pandemiya şəraitinin tələbləri nəzərə alınmaqla auditə dair normativ-hüquqi sənədlərdə, habelə mövcud metodiki bazanın təkmilləşdirilməsi istiqamətində təxirəsalınmaz tədbirlər görülsün.

**Azərbaycan Respublikasının Auditorlar Palatasında 2020-ci ilin 30 aprel – 6 may tarixlərində "Auditorun şəxsi kabineti sisteminin tətbiq edilməsi" mövzusunda vebinar keçirilmişdir**

Yeni dövrün çağırışları auditin təşkili, tənzimlənməsi və rəqəmsallaşdırılmasının müasir tələblərə müvafiq olaraq beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi, auditdə innovasiyaların və yeni texnologiyaların tətbiqi, aparılan auditlərin Beynəlxalq Audit Standartlarına, Auditorların Peşə Etika Məcəlləsinə və digər normativ-hüquqi sənədlərin tələblərinə uyğunluğunu, ən əsası isə auditor xidmətinin keyfiyyətinin və peşənin imicinin yüksədilməsinə nail olmağı zəruri edir.

Bu istiqamətdə nəticəli tədbirlərin həyata keçirilməsi məqsədilə Auditorlar Palatasında 2019-cu ildə "Auditorun şəxsi kabineti sistemi" yaradılmışdır. Auditorlar Palatasında yaradılmış İşçi Qərargahı tərəfindən auditor təşkilatlarına və sərbəst auditorlara "Auditorun şəxsi kabineti sisteminin tətbiq edilməsi" mövzusunda vebinar keçirilmişdir. Vebinarda Palatanın İcraçı direktoru, İşçi Qərargahın rəhbəri Səbuhi Gülməmmədov Palatanın üzvləri üçün vacib əhəmiyyət daşıyan auditorun şəxsi kabineti sisteminin tətbiq edilməsinin aktuallığından danışmış və qeyd etmişdir ki, şəxsi kabinetin məqsədi - auditor xidmətlərinin həyata keçirilməsində yüksək texnologiyalardan istifadə, İT proqramlarının əldə edilməsi və tətbiqinə nail olunması, auditorun şəxsi kabineti sisteminin təkmilləşdirilməsi və auditdə innovasiyaların tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi, rəqəmsal texnologiyaların tətbiqinin ölkədə həyata keçirilən regional inkişaf proqramları ilə uzlaşdırılması, auditorun şəxsi kabineti sisteminin tətbiqinə dair təlimatın hazırlanması, auditorlara çatdırılması və şəxsi kabinetdən səmərəli istifadə edilməsindən ibarətdir. Eyni zamanda vurğulanmışdır ki, Azərbaycan Respublikası ərazisində bütün auditorların səxsi kabinet sistemi ilə təmin edilməsi, auditor işinin səmərəliliyinin yüksəldilməsi, lüzumsuz gediş-gəlişin minimuma endirilməsi və Palatanın müvafiq struktur bölməsi tərəfindən bu işə nəzərətin təmin edilməsi işinin yükünü azaltmaq məqsədilə sadələşdirilmiş sistem tətbiq edilmişdir.

Sonra vebinarın mövzusu ətrafında Palatanın Rəqəmsal transformasiya və innovasiyaların tətbiqi idarəsinin rəisi, Layihənin müəllifi Qoşqar Əhmədov mövzu ətrafında geniş və əhatəli çıxış edərək öncədən hazırlanmış və Palatanın üzvlərinə tanışlıq üçün göndərilmiş "Şəxsi kabinet" sisteminin tətbiqinə dair Təlimat barədə

məlumat vermiş, eyni zamanda prezentasiya şəklində kabinetdən istifadənin (“Giriş”, “Qeydiyyat”, “Şifrənin bərpası”, “Kabinetin istifadəsi”) texniki qaydalarını izah etmişdir.

Vebinarda mövzu ətrafında suallar verilmiş və həmin suallar cavablandırılmış, habelə şəxsi kabinetin istifadəsində bəzi təkmilləşdirilmələrin aparılmasına və onların həllinə dair peşəkar müzakirələr aparılmışdır.

Vebinarın gedişində qərara alınmışdır ki, Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının və sərbəst auditorların təqdim etdikləri təklif və tövsiyələr Palata tərəfindən nəzərə alınsın və şəxsi kabinetin istifadəsi zamanı mövcud texniki Təlimatın təkmilləşdirilməsi istiqamətində təxirəsalınmaz tədbirlər görülsün.




**Azərbaycan Respublikasının Auditorlar Palatasında 2020-ci ilin 8 may tarixində “COVID-19 böhranı: Maliyyə hesabatları və audit üzrərindəki nəticələri” mövzusunda vebinar keçirilmişdir**

Auditorlar Palatası tərəfindən auditor təşkilatlarına və sərbəst auditorlara “COVID-19 böhranı: Maliyyə hesabatları və audit üzərindəki nəticələri” mövzusunda vebinar keçirilmiş, vebinarda audit sahəsində mövcud vəziyyət, maliyyə hesabatlarının hazırlanması, auditin təşkili və keçirilməsinə, müəssisələrdə risklərin idarəedilməsinə dair mütərəqqi beynəlxalq təcrübə, o cümlədən, Rusiya, Qazaxıstan və Türkiyənin təcrübəsi nəzərə alınmaqla hazırlanmış auditin aparılmasına dair tövsiyələr müzakirə edilmişdir.

Vebinarda Palata sədrinin müşaviri Fəqan Qarayev koronavirusun (Covid-19) Maliyyə hesabatları və audit üzərindəki nəticələrinə, müəssisənin risk qiymətləndirməsinə təsiri barədə məruzə etmiş və pandemiya dövründə audit aparılarkən 315 saylı "Müəssisə və onun mühitinin öyrənilməsi əsasında əhəmiyyətli təhriflər riskinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi", 500 saylı “Müstəqil audit sübutları”, 505 saylı “Kənar mənbədən təsdiqləmələr”, 540 saylı “Uçot qiymətləndirmələrinin, o cümlədən “Ədalətli dəyər qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi”, 550 saylı “Əlaqəli tərəflər”, 570 saylı “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı”, 700 saylı “Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi”, 701 saylı “Müstəqil auditorun hesabatında əsas audit məsələləri haqqında məlumat vermə”, 705 saylı “Müstəqil auditorun hesabatında fərqli rəylər”, 706 saylı “Müstəqil auditorun hesabatında izahedici paraqraflar və digər məsələlər paraqrafları”, 720 saylı “Auditi aparılmış maliyyə

hesabatlarını əks etdirən sənədlərdəki digər məlumatlar üzrə auditorun məsuliyyəti" Beynəlxalq Audit Standartlarının tələblərinə xüsusi olaraq riayət edilməsini auditorlara tövsiyə etmişdir.

Sonra Palatanın Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri, "TNM Audit" MMC-nin direktoru Nəcəf Talıbov çıxış edərək pandemiya şəraitində beynəlxalq təcrübə nəzərə alınmaqla pandemiyanın auditə təsiri, audit sifarişçisi olan təsərrüfat subyektlərinin fəaliyyətinə təsiri və auditorların fəaliyyətinə təsiri mövzuları ətrafında çıxış edərək öz fikirlərini dinləyicilərə çatdırmışdır.

Vebinarda mövzu ətrafında mövcud vəziyyət, qarşıda duran problemlər və onların həllinə dair Palatanın əməkdaşları və auditorlar tərəfindən peşəkar müzakirələr aparılmışdır.

Vebinarın gedişində qərara alınmışdır ki, Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının və sərbəst auditorların təqdim etdikləri təklif və tövsiyələr Palata tərəfindən nəzərə alınsın və pandemiya şəraitinin tələbləri nəzərə alınmaqla auditə dair normativ hüquqi sənədlərdə, habelə mövcud metodiki bazanın təkmilləşdirilməsi istiqamətində təxirəsalınmaz tədbirlər görülsün.

**Azərbaycan Respublikasının Auditorlar Palatasında 2020-ci il 2 sentyabr tarixində "dəyirmi masa" təşkil olunmuşdur**

Auditor xidmətinə ictimai etimadın yüksəldilməsi və xidmət bazarında haqlı rəqabətin təmin edilməsi auditorlar tərəfindən yol verilən haqsız rəqabət hallarının vaxtında aşkar edilməsi və belə hərəkətlərə qarşı adekvat cəza tədbirlərinin görülməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan auditor xidməti bazarında haqlı rəftar üçün zəruri şəraitin yaradılması auditor peşəsinin imicinin yüksəldilməsi və xidmət bazarında haqlı rəqabətin bərqərar olması nöqteyi-nəzərindən vacib olmaqla auditor xidmətinin stabil fəaliyyəti və inkişafı üçün imkanlar yaradır.

Bu məqsədlə haqsız rəqabətə yol verən auditorlara və onların mütəxəssislərinə qarşı təsirli tədbirlər sisteminin işlənib hazırlanması və onların tətbiqi "Auditor fəaliyyətində haqsız rəqabət hallarına qarşı mübarizəyə dair Təlimat"ın hazırlanmasını zəruri etmiş və bu məqsədlə həmin Təlimat hazırlanmışdır.

Auditorlar Palatası tərəfindən bu Təlimatın Palata üzvlərindən ibarət "Dəyirmi masa"da onlayn müzakirəsi keçirilmiş, auditorlar tərəfindən haqsız rəqabət hallarına qarşı mübarizəyə dair təkliflər verilmiş, işgüzar müzakirələr aparılmışdır.

**"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar Toplusunun (2010-2020-ci illər) 2020-ci ilin 20 avqust tarixində təqdimat mərasimi keçirilmişdir**

“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu maliyyə hesabatlarında şəffaflığın təmin edilməsində böyük əhəmiyyətə malik olan auditor xidməti qarşısında da xüsusi öhdəliklər yaratmışdır. Belə ki, həmin qanunla auditor təşkilatları və sərbəst auditorlar monitorinqdə iştirak edən digər şəxslər qismində təsbit olunmuş, Auditorlar Palatası isə bu sahədə öz səlahiyyətləri daxilində nəzarət orqanı kimi müəyyən edilmişdir. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin müvafiq dövlət proqramlarına və Milli Fəaliyyət Planlarına daxil edilməsi bu işin əhəmiyyətini daha da aktuallaşdırmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 18/59 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı”na 3-cü “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində tədbirlər” adlı 9 tədbirdən ibarət ayrıca bölmə daxil edilmişdir. Nəzərdə tutulmuş vəzifələr öz əhəmiyyətliliyi ilə bərabər, beynəlxalq təcrübə ilə sıx uzlaşması baxımından səciyyələndirilə bilər. Bu nöqteyi nəzərdən Milli Fəaliyyət Planında risk qiymətləndirilməsi amilinin xüsusi vurğulanması öz preventiv xüsusiyyətinə görə diqqəti cəlb edir.

Qanunvericiliyin və dövlət proqramlarının auditorlar qarşısında yaratdığı öhdəliklərin icrasını günün tələbləri səviyyəsində təmin etmək məqsədilə Auditorlar Palatası bu sahədə öz fəaliyyətini ilk növbədə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə normativ bazanın yaradılmasından başlamışdır. 2009-cu ildə “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul edilməsindən az bir müddət sonra Palata tərəfindən ilk normativ sənəd tərtib olunmuş, növbəti illərdə isə qanunvericiliyin və dövlət proqramlarının yaratdığı öhdəliklərin hər bir istiqaməti üzrə müvafiq qayda, təlimat, metodik göstəriş və s. materiallar hazırlanmışdır. Eyni zamanda bu istiqamətdə zəruri təlim proqramları, nəzarət, araşdırma və intizam tədbirləri üzrə də müvafiq sənədlər tərtib edilmişdir.

Həmin materiallar xidməti istifadə üçün “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar Toplusu (2010-2020-ci illər)” şəklində hazırlanaraq çap etdirilmişdir.

Bu Topluya daxil olan sənədlərin auditor fəaliyyəti ilə məşğul olanların, auditor xidməti istifadəçilərinin, digər maraqlı tərəflərin istifadəsi üçün nəzərdə tutulmuşdur, habelə nəzarət orqanlarının fəaliyyətində faydalı olacağı, geniş auditoriya kütləsi üçün nəzərdə tutulan vəsait olduğu nəzərə alınaraq distant qaydada aidiyyatı qurumların və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə həmin toplunun təqdimat mərasimi keçirilmişdir.







**Azərbaycan Respublikasının Auditorlar Palatasında 2020-ci il 14 oktyabr tarixində “Auditorların müstəqillik qaydaları» kitabının videokonfrans formatında təqdimat mərasimi keçirilmişdir.**

Auditor xidmətinin keyfiyyətinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edən auditorların müstəqilliyinin artırılmasına dəstək məqsədilə, Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış və nəşr olunmuş “Auditorların müstəqillik qaydaları» kitabının videokonfrans formatında təqdimat mərasimi keçirilmişdir.

Təqdimatda Auditorlar Palatasının əməkdaşlıq etdiyi qurumların rəhbərləri, Palatanın Şurası yanında komitə sədrləri, peşəkar mühasiblər və auditorlar iştirak etmişlər.

Videokonfransda Auditorlar Palatasının sədri, professor Vahid Novruzov nəşr edilən kitab barədə öz fikirlərini bildirərək müstəqilliyin auditin ən əsas prinsiplərindən biri olduğunu, auditorların öz müstəqilliklərini qorumaqla keyfiyyətli xidmət göstərmələrini və auditə ictimai etimadın səviyyəsinin yüksəldilməsi ilə bərabər dempinq, haqsız rəqabət, auditin nüfuzunun aşağı düşməsi və digər bir sıra xoşagəlməz halların qarşısının alınmasına zəmin yaratmalarını vurğulamışdır. O, bildirmişdir ki, auditin və mühasibatlığın tənzimlənməsini həyata keçirən beynəlxalq qurumlar auditorların müstəqilliyinin qorunması və müvafiq prosedurların tətbiq edilməsini özündə ehtiva edən normativ metodik materialların hazırlanmasına xüsusi əhəmiyyət verirlər. Bu baxımdan 2018-ci ildə Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) tərəfindən dərc edilmiş mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının hazırladığı «Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) çox mühüm əhəmiyyətə malikdir. Xüsusi vurğulamaq lazımdır ki, ilk dəfə olaraq “Peşəkar

Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi” “Beynəlxalq Müstəqillik Standartları” ilə birlikdə nəşr olunmuşdur. IFAC tərəfindən nəşr olunmuş və 2019-cu ilin sonlarında Auditorlar Palatası tərəfindən Azərbaycan dilinə tərcümə olunaraq dərc edilmiş «Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsində (Beynəlxalq Müstəqillik Standartları» ilə birlikdə) ehtiva olunmuş müddəaların mahiyyətinin üzvlərimizə, habelə ölkə mühasiblərinə çatdırılması, Məcəllənin prinsipləri əsas götürülməklə yeni normativ hüquqi aktların və xüsusi milli sənədlərin hazırlanmasını və tətbiqini ön plana çəkir. Bu baxımdan Azərbaycan Respublikasının Auditorlar Palatasında yaradılmış işçi qrupu tərəfindən kitabın işlənib hazırlanmasında əməyi olan şəxslərə öz minnətdarlığını bildirmişdir.

Daha sonra Azərbaycan Dövlət İqtisad Universitetinin “Mühasibat uçotu və audit” kafedrasının müdiri, professor Sifariz Səbzəliyev, Auditorlar Palatası Aparatının rəhbəri Qəşəm Bayramov, Auditorlar Palatanın Şurası yanında Beynəlxalq Audit Standartları və Maliyyə Hesabatlarının Beynəlxalq standartları üzrə komitənin sədri Namiq Abbaslı, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının prezidenti Nuriyyə Novruzova, Auditorlar Palatası Şurasının üzvü Altay Cəfərov, “Barattson” MMC-nin rəhbəri Elşən Rəhimov, Auditorlar Palatanın Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin sədri Vəli Kərimov, Azərbaycan Mühasibat və Risk Peşəkarları Assosiasiyasının İdarə Heyətinin sədri Günay Şahbazova çıxış edərək kitabın peşənin inkişafında və onun müstəqilliyinin təmin edilməsində mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışlar.

**2020-ci il 24 noyabr tarixində “Qələbəyə aparan yol: iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” mövzusunda onlayn elmi-praktik konfrans keçirilmişdir**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müharibədən sonrakı dövrdə işğal olunmuş ərazilərin bərpasına dair konseptual təklif və göstərişlərinin reallaşdırılması istiqamətində zəruri tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində elmi-praktik əhəmiyyət kəsb edən tövsiyələrin müəyyənləşdirilməsi məqsədilə, Azərbaycan İqtisadçılar İttifaqı və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə “Qələbəyə aparan yol: iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” mövzusunda onlayn elmi-praktik konfrans keçirilmişdir.



Konfransda Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov Auditorlar Palatasının kollektivi və üzvləri adından Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandan İlham Əliyevi və bütün Azərbaycan xalqını işğal olunmuş ərazilərimizin azad edilməsi istiqamətində qazandığımız tarixi zəfərlər münasibətilə səmimi qəlbdən təbrik edib. İşğaldan azad edilən torpaqlarımızın yenidən qurulması, işğaldan əvvəlkindən də daha gözəl şəkildə dirçəldilməsi üçün Azərbaycan Respublikasının Auditorlar Palatası olaraq üzərlərinə düşən vəzifələri yerinə yetirmək əzmində olduqlarını və əllərindən gələni edəcəklərini vurğulamışdır.

Daha sonra Azərbaycan İqtisadçılar İttifaqının sədri, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti, millət vəkili, akademik Ziyad Səmədzadə "Prezident İlham Əliyevin iqtisadi siyasətində Qarabağın sosial-iqtisadi inkişafı perspektivləri istiqamətləri", Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov "İşğaldan azad olunmuş ərazilərdə kiçik və orta biznesin inkişafı istiqamətində dövlət tərəfindən həyata keçiriləcək tədbirlər", AMEA-nın İqtisadiyyat İnstitutunun nəzdində "Postkonflikt ərazilərin bərpası" Elmi Mərkəzinin rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Akif Musayev "Azad olunmuş ərazilərin bərpasının maliyyə qaynaqları", Azərbaycan Respublikası Auditorlar Palatasının Şura üzvü, sərbəst auditor Altay Cəfərov "İşğaldan sonrakı dövrdə azad olunmuş ərazilərin imkanlarının yenidən qiymətləndirilməsində uçot və auditin rolu", Azərbaycan Kooperasiya Universitetinin elm və innovasiyalar üzrə prorektoru, professor, əməkdar elm xadimi Bəyalı Ataşov "İşğalda azad olunmuş rayonların ölkəmizin ərzaq təhlükəsizliyinin gücləndirilməsində rolu", Azərbaycan Respublikasının Auditorlar Palatası

Şurasının yanında Auditor təşkilatlarının inkişafına dəstək üzrə komitənin sədri, «ABAK-Az Crovve LTD» MMC-nin direktoru Zamin Hüseynov “Müharibənin və işğalın vurduğu zərər və itkilərin Beynəlxalq Qiymətləndirmə Standartları, beynəlxalq təşkilatların zərərlərin qiymətləndirilməsi üzrə qəbul etdiyi sənədlər əsasında qəbul edilmiş “Zərərlərin Qiymətləndirilməsi Standartları”na uyğun olaraq qiymətləndirilməsi təcrübəsi”, Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini Elşad Səmədzadə “Dayanıqlı inkişafın nəticələri – qələbə”, Auditorlar Palatasının sədri, professor Vahid Novruzov və Palatanın Rəqəmsal transformasiya və innovasiyaların tətbiqi idarəsinin rəisi Qoşqar Əhmədov “Postmünaqişə dövründə ekoloji qiymətləndirmə və ekoloji audit” mövzularında məruzələrlə çıxış etmişlər. Sonda məruzələr ətrafında geniş müzakirələr aparılmış, konkret təklif və tövsiyələr səsləndirilmişdir.

Konfransın təşkilatçıları tərəfindən müvafiq tövsiyələr hazırlanmış və həmin tövsiyələr Azərbaycan Respublikasının Prezidentinin Administrasiyasına, Nazirlər Kabinetinə və İqtisadiyyat Nazirliyinə göndərilmişdir.

*«İlk növbədə təhlükəsizlik, ondan sonra infrastruktur, daha sonra bütün başqa bərpa məsələləri öz həllini tapacaq.»*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

Azərbaycan İqtisadçılar İttifaqı

Azərbaycan Respublikasının Auditorlar Palatası

QƏLƏBƏYƏ APARAN YOL: İQTİSADİYYATI GÜCLÜ OLAN DÖVLƏT HƏR ŞEYƏ QADİRDİR

*ONLAYN ELMİ-PRAKTİK KONFRANSIN PROQRAMI*

BAKI, 24 noyabr 2020-ci il

# IX. BEYNƏLXALQ ƏLAQƏLƏR

2020-ci il ərzində təşkil olunmuş bir çox beynəlxalq tədbirlərdə Palata təmsilçilərinin iştirakı təmin olunmuşdur. Lakin dünyada yaranmış pandemiya ilə əlaqədar olaraq, 2020-ci ilin mart ayından iştirakçıların tədbirlərdə iştirakı onlayn şəkildə təşkil olunmuşdur.

2020-ci il 21 fevral tarixində Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, "L.B. Audit xidməti" MMC-nin direktor-auditoru Lamiyə Bayramova Romada keçirilən Azərbaycan-İtaliya biznes forumunda iştirak etmişdir.

2020-ci il 26 iyun tarixində Kiçik və Orta Müəssisələr üçün Avropa Mühasiblər və Auditorlar Federasiyasının videokonfrans formatında 2020-ci il üzrə İllik Ümumi Yığıncağı keçirilmişdir.

İllik Ümumi Yığıncaqda beynəlxalq quruma üzv ölkələrin peşəkar audit və mühasibat təşkilatlarının nümayəndələri, o cümlədən Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, Palata sədrinin müşaviri, Beynəlxalq əlaqələr komitəsinin sədri Fəqan Qarayev, Palatanın üzvü, "SR Audit Solutions" MMC-nin direktoru – auditor Səftər Vəlizadə və Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının prezidenti Nuriyyə Novruzova iştirak etmişlər.

İllik Ümumi Yığıncaqda beynəlxalq qurumun 2019-cu il üzrə illik və maliyyə hesabatları təqdim edilərək bəyənilmiş, 2020-ci ilin proqnozu və 2021-ci il üçün təklif olunan büdcəsi müzakirə olunmuşdur.

Tədbirdə Auditorlar Palatasının sədri, Vahid Novruzov çıxış etmiş, ölkəmizdə şəffaflığın yüksəldilməsi, hesabatlılığın təkmilləşdirilməsi, kiçik və orta sahibkarlığın inkişafından danışmışdır.

Azərbaycan üçün əlamətdar olan xəbər isə ondan ibarət olmuşdur ki, İllik Ümumi Yığıncağın qərarı ilə EFAA-nın 2023-cü ildəki Beynəlxalq Konfransına ölkəmiz ev sahibliyi edəcəkdir.

**Azərbaycan Respublikası Auditorlar Palatasının nümayəndə heyəti 2020-ci il 29 may tarixində Avrasiya regionu üzrə peşəkar audit və mühasibatlıq qurumlarının beynəlxalq videokonfransında iştirak etmişdir**

Rusiya Federasiyasının "Sodrujestvo" Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyası tərəfindən Avrasiya regionunun peşəkar mühasibat və auditorlar təşkilatları rəhbərlərinin iştirakı ilə beynəlxalq videokonfrans keçirilmişdir. Konfransda Azərbaycan Respublikasının Auditorlar Palatasının sədri, Vahid Novruzov və Palatanın Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri Nəcəf Talıbov iştirak etmiş və məruzə ilə çıxış etmişlər.

Beynəlxalq konfransda indiki pandemiya şəraitində mühasibatlıq, hesabatlılıq və təşkilatların maliyyə hesabatlarının auditi sahəsində qarşıya çıxan çətinliklərin dəf edilməsində mühasiblərin və auditorların peşəkar təşkilatlarının işgüzar əlaqələrinin daha da gücləndirilməsi, təcrübə mübadiləsi, mövcud problemlərin həllində qüvvələrin səfərbər

edilməsinin vacibliyi vurğulanmış, bu istiqamətdə konkret vəzifələr və onların həlli yolları barədə işgüzar müzakirələr aparılmışdır. Auditorlar Palatası sədrinin “Koronavirus (COVID-19) şəraitində audit" mövzusunda çıxışı konfrans iştirakçıları tərəfindən maraqla qarşılanmışdır. Palatanın komitə sədri Nəcəf Talıbov pandemiya şəraitində Auditorlar Palatası tərəfindən qurumun üzvlərinin normal fəaliyyəti üçün həyata keçirilən tədbirlər barədə məlumat verilmişdir.

Beynəlxalq konfransda onlayn formada belə müzakirələrin daha tez-tez aparılması zərurəti, mövcud problemlərin həlli üçün təkliflər hazırlamaq məqsədilə müvafiq regional qrupların yaradılması, mühasibatlıq və audit sahəsində regionda beynəlxalq prosedurların daha geniş tətbiqi istiqamətində birgə fəaliyyətin əhəmiyyəti konfrans iştirakçıları tərəfindən dəstəklənmişdir.

**Azərbaycan Respublikası Auditorlar Palatasının nümayəndə heyəti 2020-ci il 19 iyun tarixində Avrasiya regionu üzrə peşəkar audit və mühasibatlıq qurumlarının beynəlxalq videokonfransında iştirak etmişdir**

Rusiya Federasiyasının “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyası tərəfindən Avrasiya regionunun peşəkar mühasibat və auditorlar təşkilatları rəhbərlərinin iştirakı ilə beynəlxalq videokonfrans keçirmişdir. Konfransda Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, Vahid Novruzov və Palata sədrinin müşaviri Fəqan Qarayev iştirak etmişlər.

Videokonfransın keçirilməsində əsas məqsəd auditə ictimai etimadın yüksəldilməsi, kölgə iqtisadiyyatı ilə mübarizədə müstəqil auditin rolunun artırılması, auditorların işinin səmərəliliyinin yüksəldilməsi, audit xidmətlərinin keyfiyyətinə nəzarətin gücləndirilməsi məqsədilə Avrasiya regionunda işçi qruplarının yaradılması olmuşdur.

Konfransda Rusiya Federasiyasının Özünütənzimləyən auditorlar təşkilatı olan “Sodrujestvo” Assosiasiyasının (SRO AAS) baş direktoru Olqa Nosova Avrasiya bölgəsində auditin inkişafında böyük xidmətləri olacaq peşəkar işçi qruplarının yaradılmasının əhəmiyyətindən danışmışdır.

Daha sonra Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun “Peşəkar auditor təşkilatlarının cinayət yolu ilə əldə edilmiş çirkli pulların yuyulmasına qarşı mübarizədə birgə səylərinin əlaqələndirilməsi" mövzusundakı çıxışı konfrans iştirakçıları tərəfindən maraqla qarşılanmışdır. Çıxışı zamanı o, kölgə iqtisadiyyatı ilə mübarizə və cinayət yolu ilə əldə edilən gəlirlərin leqallaşdırılmasına qarşı mübarizə aparan daxili auditorların, mütəxəssislərin hazırlanması üçün yüksək keyfiyyətli proqramların yoxluğundan mühasiblərin və auditorların əsas vəzifələrini, funksiyalarını və məsuliyyətlərini müəyyənləşdirən müvafiq tənzimləyici və metodiki materialların, çirkli pulların yuyulmasına qarşı mübarizə standartlarının hazırlanması, bu sahədə zəruri nəzəri və praktik bacarıqlara malik lazımlı kadrların hazırlanmasının vacibliyindən danışmışdır.

Daha sonra SRO AAS Beynəlxalq Əlaqələr Komitəsinin üzvü Kuxar Daria və Latviya Mühasiblər Assosiasiyasının prezidenti Ponomarev Andrey də mövzu ətrafında çıxışlar etmişlər.

Videokonfrans zamanı beynəlxalq audit standartları, Avrasiya regionunda milli audit və korporativ hesabat sistemlərinin inkişafı, kölgə iqtisadiyyatı ilə mübarizədə müstəqil auditin rolunun artırılması üçün təlimatların hazırlanması, mütəxəssislərin və auditorların keyfiyyətə kənar nəzarət prosesində iştirak edən digər şəxslərin təlim və ixtisasartırma sisteminin təşkili məsələləri, auditor xidmətlərinin keyfiyyətinə nəzarətin idarə olunması üçün yeni standartların tətbiqi sahəsində birgə səylərin əlaqələndirilməsi kimi məsələlər ətrafında geniş müzakirələr aparılmışdır.

Beynəlxalq konfransda onlayn formada belə müzakirələrin daha tez-tez aparılması zərurəti, mövcud problemlərin həlli üçün təkliflər hazırlamaq məqsədilə müvafiq regional qrupların yaradılması və birgə fəaliyyətin əhəmiyyəti konfrans iştirakçıları tərəfindən dəstəklənmişdir.

2020-ci il 9 iyul tarixində EFAA-nın İllik Ümumi Yığıncağında, “Kiçik və orta müəssisələrin hesabatlılığının gələcəyi: COVİD-19 təsirləri” adlı vebinarda, 2020-ci il 23 iyul tarixində onlayn qaydada keçirilmiş “Kiçik və orta müəssisələrin auditinin gələcəyi: Audit Standartlarının COVİD-19 dönəmində tətbiqi” adlı vebinarda Palata sədrinin müşaviri Fəqan Qarayev və “SR Audit Solutions” MMC-nin direktoru Səftər Vəlizadə iştirak etmişlər.

2020-ci il 14 iyul tarixində Avrasiya regionu üzrə peşəkar audit və mühasibatlıq qurumlarının “Beynəlxalq Audit Standartları (BAS) 600 layihəsi üzrə Avrasiya bölgəsindən peşəkar bir şərh hazırlanmış: Qrupun Maliyyə Hesabatları üçün Audit Mülahizələri (Auditorların işi daxil olmaqla)” mövzusunda keçirdiyi vebinarda Auditorlar Palatasınn Maliyyə təminatı və xarici əlaqələr idarəsinin rəisi Vəli Rəhimov və “ANR Audit” MMC-nin direktoru Namiq Abbaslı iştirak etmişlər.

2020-ci il 16 iyul tarixində Rusiya Federasiyasının “Содружество” Özünü Tənzimləyən Auditor Təşkilatları Assosiasiyasının “IFAC Üzvlük Bəyannaməsi və Fəaliyyət Planı: Təsiri, Tələbləri və Praktik Təlimatlar” mövzusunda keçirdiyi vebinarda Auditorlar Palatasının Maliyyə təminatı və xarici əlaqələr idarəsinin rəisi Vəli Rəhimov iştirak etmişdir.

2020-ci il 16 iyul tarixində “Auditin həyata keçirilməsi”, 23 iyul tarixində isə “Audit Hesabatı və Gələcəyə baxış” mövzusunda Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) keçirdiyi vebinarda Auditorlar Palatasının Maliyyə təminatı və xarici əlaqələr idarəsinin rəisi Vəli Rəhimov iştirak etmişdir.

2020-ci il 16 iyul tarixində Cinayət yolu ilə əldə edilmiş çirkli pulların yuyulmasına qarşı PAO-ların birgə səylərini əlaqələndirmək və kölgə iqtisadiyyatına qarşı mübarizədə müstəqil auditin rolunu artırmaq üçün əsas istiqamətləri inkişaf etdirmək məqsədilə Avrasiya regionu üzrə peşəkar audit və mühasibatlıq qurumlarının keçirdiyi vebinarda

Auditorlar Palatasının sədri, professor Vahid Novruzov iştirak etmişdir.

2020-ci il 28 iyul tarixində Rusiyanın "Sodrujestvo" Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyası tərəfindən videokonfrans formatında təşkil edilmiş "Avrasiya regionunun cinayət yolu ilə əldə edilmiş gəlirlərin yuyulmasına və kölgə iqtisadiyyatına qarşı mübarizədə müstəqil auditin rolunun artırılmasının əsas istiqamətlərinin işlənib hazırlanmasına dair peşəkar audit qurumlarının birgə səylərinin əlaqələndirilməsi üzrə İşçi qrupunun iclası" keçirilmişdir.

İşçi qrupunun iclasında Palatanın sədri, Vahid Novruzov iştirak etmişdir. İclasda Azərbaycanla yanaşı, Rusiya, Belarus, Moldova, Latviya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və digər ölkələrin peşəkar audit və mühasibatlıq qurumlarının, Beynəlxalq Mühasiblər Federasiyasının nümayəndələri iştirak etmişlər. İclasın keçirilməsində məqsəd auditə ictimai etimadın yüksəldilməsi, kölgə iqtisadiyyatına və çirkli pulların yuyulmasına qarşı mübarizədə müstəqil auditin rolunun artırılması, auditorların işinin səmərəliliyinin artırılması, audit xidmətlərinin keyfiyyətinə nəzarətin gücləndirilməsi məqsədilə Avrasiya regionu üzrə peşəkar audit və mühasibatlıq təşkilatlarının nümayəndələrindən ibarət yaradılmış işçi qruplarının səmərəli fəaliyyətinin təşkil edilməsi olmuşdur.

2020-ci il 6 avqust tarixində Avrasiya regionu üzrə peşəkar audit və mühasibatlıq qurumlarının BAS-ların inkişafı ilə bağlı keçirdiyi vebinarda Auditorlar Palatasının Maliyyə təminatı və xarici əlaqələr idarəsinin rəisi Vəli Rəhimov iştirak etmişdir.

2020-ci il 13 avqust tarixində Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Kiçik və Orta Müəssisələr üçün Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) arasında videokonfrans formatında iclas keçirilmişdir.

Yığıncaqda beynəlxalq qurumun prezidenti Salvador Marin, Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin müşaviri, Beynəlxalq əlaqələr komitəsinin sədri Fəqan Qarayev və Palatanın üzvü, "SR Audit Solutions" MMC-nin direktoru-auditor Səftər Vəlizadə iştirak etmişdir.

EFAA-nın prezidenti Salvador Marin Palatanın sədrinə iki qurum arasında davam edən sıx əməkdaşlığa görə öz minnətdarlığını bildirmiş və əməkdaşlığımızın gələcək inkişafına dair aşağıdakı təklifləri irəli sürmüşdür:

1. Palatanın üzvü, auditor Səftər Vəlizadənin EFAA-nın Mühasibatlıq və Audit üzrə Ekspert Qruplarına daxil edilməsi;

2. Auditorlar Palatasına göstərilən etimada əsasən, onun üzvü Səftər Vəlizadənin region üzrə EFAA prezidentinin müşaviri olması və onun adından çıxış etməsi, qonşu ölkələr Türkiyə və Gürcüstanın mühasibatlıq və audit qurumlarının EFAA-nın üzvlüyünə qəbul edilməsi istiqamətində EFAA-ya dəstək və köməyin göstərilməsi.

Daha sonra beynəlxalq qurumun prezidenti Salvador Marin 2020-ci ilin sentyabr ayında öz təkliflərinə dair dəqiqləşdirilmiş gündəliyin hazırlanıb Auditorlar Palatasına göndəriləcəyini bildirmiş və bir daha Palatanın rəhbərliyinə öz minnətdarlığını ifadə etmişdir.



2020-ci il 7 sentyabr tarixində Avrasiya regionu üzrə peşəkar audit və mühasibatlıq qurumlarının BAS-ların inkişafı üzrə müzakirəsi və BAS 600 layihəsi üçün təkliflərin hazırlanması ilə əlaqədar keçirdiyi vebinarda Auditorlar Palatasının Maliyyə təminatı və xarici əlaqələr idarəsinin rəisi Vəli Rəhimov və "ANR Audit" MMC-nin direktoru Namiq Abbaslı iştirak etmişlər.

2020-ci il 15 sentyabr tarixində onlayn qaydada keçirilmiş "Kiçik və orta müəssisələrin gələcəyi: Likvidlik və Biznesin Davamlılığı" adlı vebinarda Palata sədrinin müşaviri Fəqan Qarayev, Maliyyə təminatı və xarici əlaqələr idarəsinin rəisi Vəli Rəhimov, Rəqəmsal transformasiya və innovasiyaların tətbiqi idarəsinin rəisi Qoşqar Əhmədov və "SR Audit Solutions" MMC-nin direktoru Səftər Vəlizadə iştirak etmişlər.

2020-ci il 23 sentyabr tarixində Rusiya Federasiyasının "Содружество" Özünü Tənzimləyən Auditor Təşkilatları Assosiasiyasının "Audit təşkilatında keyfiyyətə nəzarət sistemi" mövzusunda vebinarda Auditorlar Palatasının Rəqəmsal transformasiya və innovasiyaların tətbiqi idarəsinin rəisi Qoşqar Əhmədov və Sərbəst auditor Vəli Kərimov iştirak etmişlər.

2020-ci il 15 oktyabr tarixində Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) tərəfindən onlayn qaydada keçirilmiş "SMP-lərin Gələcəyi - Rəqəmsal Səriştənin İnkişaf etdirilməsi" adlı vebinarda Auditorlar Palatasının sədri, Vahid Novruzov iştirak etmişdir.

2020-ci il 29 oktyabr tarixində Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) tərəfindən təşkil olunmuş "SME-lər tərəfindən qeyri-maliyyə hesabatlarının gələcəyi" adlı vebinarda Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, Palata sədrinin müşaviri Fəqan Qarayev, Rəqəmsal transformasiya və innovasiyaların tətbiqi idarəsinin rəisi Qoşqar Əhmədov iştirak etmişlər.

2020-ci il 8 oktyabr tarixində Rusiya Federasiyasının "Содружество" Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının "Avrasiya regionu üzrə ölkələrində audit və mühasibat xidmətləri üçün ümumi bazarların işləmə məsələləri və perspektivləri" adlı tədbirində Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov iştirak etmişdir.

2020-ci il 14 oktyabr tarixində Rusiya Federasiyasının "Содружество Özünü Tənzimləyən Auditor Təşkilatları Assosiasiyasının "Avrasiya bölgəsində mühasiblər və auditorların regional qrupunun yaradılması" adlı vebinarda Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, Palata sədrinin müşaviri Fəqan Qarayev iştirak etmişlər.

2020-ci il 22 oktyabr tarixində Rusiya Federasiyasının “Содружество Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyası” tərəfindən videokonfrans formatında Avrasiya regionunun audit və mühasibatlıq qurumlarının rəhbərlərinin iştirakı ilə “Cinayət yolu ilə əldə edilmiş gəlirin yuyulmasına və kölgə iqtisadiyyatına qarşı mübarizədə müstəqil auditin rolunun artırılmasının əsas istiqamətlərinin işlənib hazırlanması üzrə peşəkar auditor və mühasibatlıq təşkilatlarının birgə səylərinin koordinasiyası üzrə işçi qrupu”nun iclası keçirilmişdir.

İclasda Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, Palata sədrinin müşaviri Fəqan Qarayev, Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov və işçi qrupunun üzvü, Azel-Audit” MMC-nin direktor-auditoru Elzadə Süleymanova iştirak etmişlər.

Videokonfransın keçirilməsində məqsəd cinayət yolu ilə əldə edilmiş gəlirin yuyulmasına və kölgə iqtisadiyyatına qarşı mübarizədə peşəkar audit və mühasibatlıq qurumlarının birgə səylərinin əlaqələndirilməsi və müstəqil auditin rolunun bu sahədə artırılması, PL/TMM və audit xidmətlərinin keyfiyyətinə nəzarətin hüquqi əsaslarının təkmilləşdirilməsi olmuşdur.

2020-ci il 29-30 oktyabr tarixlərində Rusiya Federasiyasının “Содружество” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının "İnnovativ iqtisadiyyata keçiddə mühasibat, audit və mühasibat təhsilinin beynəlxalq standartlara uyğun islahatı" adlı elmi-praktik konfransında Auditorlar Palatasının Rəqəmsal transformasiya və innovasiyaların tətbiqi idarəsinin rəisi Qoşqar Əhmədov iştirak etmişdir.

2020-ci il 19 noyabr tarixində Avrasiya Bölgəsinin keyfiyyətə nəzarət, auditdə haqsız rəqabət hallarının müəyyən edilməsi, auditin keyfiyyətinin artırılması və haqsız rəqabətin qarşısının alınması üçün tədbirlər hazırlanması üzrə İşçi Qrupunun iclasında Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, Palata sədrinin müşaviri Fəqan Qarayev, Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov, Rəqəmsal transformasiya və innovasiyaların tətbiqi idarəsinin rəisi Qoşqar Əhmədov və “Azel-Audit” MMC-nin direktoru Elzadə Süleymanova iştirak etmişlər.

## X. AUDİTORLAR PALATASININ ŞURASI YANINDA KOMİTƏLƏRİN VƏ KOMİSSİYANIN FƏALİYYƏTİ

2020-ci ildə Palatanın Şurası yanında, adları qeyd olunan peşəkar auditorların rəhbərlik etdiyi aşağıdakı komitələr və komissiya fəaliyyət göstərmişlər:

I. Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitə - Nəcəf Talıbov, “TNM Audit” MMC-nin direktoru-auditor.

II. Keyfiyyətə nəzarət üzrə komitə - Vəli Kərimov, sərbəst auditor.

III. Beynəlxalq Audit Standartları və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə komitə - Namiq Abbaslı, “ANR Audit” MMC-nin direktoru-auditor.

IV. Beynəlxalq əlaqələr üzrə komitə - Fəqan Qarayev, Auditorlar Palatası sədrinin müşaviri.

V. Auditor təşkilatlarının inkişafına dəstək üzrə komitə - Zamin Hüseynov, “ABAK-Az Crovve LTD” MMC-nin direktoru-auditor.

VI. Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitə - Elçin Qurbanov, “VXA Audit” MMC-nin direktoru-auditor.

VII. Şəffaflığın təminatı, dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitə - Üzeyir Fətiyev, sərbəst auditor.

VIII. Auditdə innovasiyaların tətbiqi və informasiya siyasəti üzrə komitə - Yunis Salayev, “BDO Azərbaycan” MMC-nin direktoru-auditor.

IX. Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitə - Abbasəli Qurbanov, “Analitik - Audit” MMC-nin direktoru-auditor.

X. İctimai nəzarət və üzvlərlə iş üzrə komitə - Aftandil Əliyev, sərbəst auditor.

XI. Etika, mübahisələr və intizam komissiyası - İbiş Əliyev, sərbəst auditor.

Komitələr və komissiya öz fəaliyyətlərini Palatanın struktur bölmələri ilə bərabər iş planına müvafiq formada qurmuş və səlahiyyətləri çərçivəsində öhdəliklərini yerinə yetirmişlər. Komitələrin və komissiyanın fəaliyyətləri bu hesabatın müvafiq bölmələrində əksini tapmışdır.

## XI. AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ 2020-Cİ İL ƏRZİNDƏ KEÇİRDİYİ İCLASLAR HAQQINDA

2020-ci il ərzində Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 11 iclası (fəaliyyətə başladığı dövrdən hesabat ilinin sonunadək üç yüz iyirmi yeddi iclas) keçirilmişdir. Bunun üçün əvvəlcədən məruzəçilər tərəfindən hazırlanmış müvafiq qərar layihələri və onlara əlavələr toplanmış, onlara dair rəyçilər tərəfindən verilmiş rəylər alınmış və Şura iclasları üçün hazırlanmışdır. Şura iclaslarında əsasən auditor fəaliyyətini tənzimləyən normativ hüquqi sənədlərin, təlimatların, standartların və qaydaların müzakirəsi ilə əlaqədar qərarlar qəbul edilmişdir.

Palata Şurasının 2020-ci il 21 fevral tarixində keçirilən üç yüz on yeddinci iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2019-cu il üzrə Palataya üzvlük haqqının ödənilməsi vəziyyəti barədə;

2. 2019-cu ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlil barədə;

3. Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin müfəttişlərinə əmək haqqının müəyyən edilməsi barədə.



Palata Şurasının 2020-ci il 17 mart tarixində keçirilən üç yüz on səkkizinci iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2019-cu il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması barədə;

2. Sərbəst auditorların və auditor təşkilatlarının 2019-cu il üzrə illik hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə;

3. Azərbaycan dilinə tərcümə edilmiş Kiçik və orta müəssisələrin auditində Beynəlxalq Audit Standartlarının tətbiqinə dair təlimatın 2018-ci il versiyasının I və II cildlərinin tətbiqi barədə;

4. Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən komitələrin və komissiyanın 2019-cu il üzrə hesabatlarının müzakirəsi və 2020-ci il üzrə iş planlarının təsdiq edilməsi barədə.

Palata Şurasının 2020-ci il 24 aprel tarixində keçirilən üç yüz on doqquzuncu iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Auditorlar Palatasının struktur bölmələrinin 2020-ci il üzrə fəaliyyəti barədə rüblük hesabatların hazırlanması, onların təhlili və tövsiyələrin verilməsi barədə;

2. Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə iş planında dəyişikliklər edilməsi barədə;

3. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2019-cu il 28 dekabr tarixli 316/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri"nə karantin müddətində güzəştin tətbiqi barədə.



Palata Şurasının 2020-ci il 20 may tarixində keçirilən üç yüz iyirminci iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. 2019-cu ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi barədə;

2. “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar toplusu barədə;

3. 2020-ci il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin layihəsinin hazırlanması barədə;

4. Azərbaycan Respublikasının Vergi və Mülki Məcəllələrinə, digər qanunvericilik aktlarına dəyişikliklərin layihəsinin hazırlanması və müvafiq qaydada təqdim edilməsi barədə;

5. Tənzimləyici təsirin təhlilinə dair illik planın hazırlanması və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim olunması barədə.

Palata Şurasının 2020-ci il 29 iyun tarixində keçirilən üç yüz iyirmi birinci iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Azərbaycan Respublikasının Auditorlar Palatasında auditor təşkilatlarının, sərbəst auditorların və onların sifarişçilərinin kommersiya sirrini təşkil edən, həmçinin xüsusi məlumatlarının məxfi saxlanılması barədə;

2. Bir sıra auditor təşkilatları və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinin plandankənar monitorinqinin həyata keçirilməsi barədə;

3. Azərbaycan Respublikasının Auditorlar Palatası üzvlərinin hüquq və vəzifələri haqqında Əsasnaməyə dəyişikliklər edilməsi barədə;

4. Azərbaycan Respublikasının ərazisində auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazələrin qüvvədəolma müddətinin başa çatması ilə əlaqədar keçiriləcək imtahan barədə;

5. “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyə auditorlar tərəfindən riayət edilməsinin monitorinqinə dair təlimat”ın layihəsinin müzakirəsi barədə;

6. Palatanın Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin üzvlərinin və müfəttişlərinin tərkibində dəyişiklik edilməsi barədə;

7. Auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalara dəyişiklik və əlavələr edilməsi barədə;

8. “Auditorların müstəqillik qaydaları” barədə.



Palata Şurasının 2020-ci il 25 sentyabr tarixində keçirilən üç yüz iyirmi ikinci iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Auditor təşkilatlarının və sərbəst auditorların 2020-ci il üzrə I yarımillik hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə;

2. “Auditor fəaliyyətində haqsız rəqabət hallarına qarşı mübarizəyə dair təlimat”ın layihəsinin müzakirəsi barədə;

3. Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti arasında əməkdaşlıq sazişinin layihəsinin müzakirəsi barədə;

4. Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə iş planına dəyişiklik edilməsi barədə.

Palata Şurasının 2020-ci il 10 noyabr tarixində keçirilən üç yüz iyirmi üçüncü iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. “Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər üzrə)” hazırlanması barədə;

2. Palatanın və onun Şurasının iş planlarının, Palatanın iş planına əsasən tərtib edilmiş Plan-proqramların, Palata rəhbərliyinin əmrlərinin, sərəncamlarının və tapşırıqlarının Palatanın struktur bölmələri tərəfindən icra olunmasının təşkili barədə;

3. “Kölgə iqtisadiyyatının ölçülməsi üzrə metodik Əsasnamə” barədə;

4. Əmlakın qiymətləndirilməsinin auditinə dair proqram barədə;

5. Auditor xidmətlərinin minimum hədlərinə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən riayət edilməsi vəziyyətinin araşdırılması barədə;

6. “Auditor fəaliyyətində haqsız rəqabət hallarına qarşı mübarizəyə dair Təlimat”ın layihəsinin müzakirəsi barədə;

7. Avrasiya Mühasiblər və Auditorlar Assosiasiyasının təsis edilməsi və onun nizamnaməsinin layihəsinin müzakirəsi barədə;

8. Auditor xidmətlərinin minimum hədlərinə güzəşt edilməsi barədə.

Palata Şurasının 2020-ci il 26 noyabr tarixində keçirilən üç yüz iyirmi dördüncü iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə iş planının hazırlanması barədə;

2. Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illiyi ilə əlaqədar hazırlıq tədbirlərinin həyata keçirilməsi barədə;

3. “Auditorun şəxsi kabineti sistemi”nin tətbiq edilməsinə dair hesabat barədə;

4. “Auditə dair kitabların, dərs vəsaitlərinin, məlumat və təbliğat-təşviqat xarakterli kitabça, broşür, prospektlərin və digər materialların hazırlanmasının və nəşr etdirilməsinin təşkil edilməsi” barədə;

5. “Auditor fəaliyyəti ilə əlaqədar təlimatlar, tövsiyələr, metodik göstəriş və şərhlərin hazırlanması”na dair hazırlanmış hesabat barədə.

Palata Şurasının 2020-ci il 7 dekabr tarixində keçirilən üç yüz iyirmi beşinci iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyada nəzərdə tutulan tədbirlərin tətbiqi barədə;

2. Kölgə iqtisadiyyatının azaldılması üzrə Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin tətbiqi barədə;

3. Azərbaycan Respublikasının ərazisində auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazələrin qüvvədəolma müddətinin başa çatması ilə əlaqədar keçiriləcək imtahan barədə.

Palata Şurasının 2020-ci il 17 dekabr tarixində keçirilən üç yüz iyirmi altıncı iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. “Əmlakın qiymətləndirilməsinin auditinə dair tövsiyələr”in layihəsi barədə;

2. “İnnovasiya tətbiq edilən müəssisələrdə auditin aparılmasına dair tövsiyələr”in layihəsi barədə;

3. Auditorlar Palatasının fəaliyyəti barədə ictimaiyyətin KİV-lər vasitəsilə müntəzəm məlumatlandırılması barədə;

4. Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə auditlərin aparılması barədə.

Palata Şurasının 2020-ci il 29 dekabr tarixində keçirilən üç yüz iyirmi yeddinci iclasında aşağıdakı məsələlərə baxılmışdır:

1. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2021-ci il üzrə iş planı barədə;

2. Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) təqdim edilmiş fəaliyyət planının icrası ilə əlaqədar məlumatların hazırlanması və göndərilməsi barədə;

3. Auditorların işlərinin nəticələrinin təsərrüfat subyektlərinin uğurlarının davamlılığına təsirlərinin müəyyənləşdirilməsi üzrə metodika barədə;

4. Auditorlar Palatasında daxili auditin həyata keçirilməsi barədə;

5. Auditorlar Palatasının üzvləri tərəfindən üzvlük haqqının ödənilməsi vəziyyəti barədə.

Hesabat dövrü ərzində Auditorlar Palatasının Şura iclaslarında müzakirə olunmuş məsələlərə dair qəbul edilmiş qərarlar vaxtında və yüksək keyfiyyətlə icra edilmişdir.

# XII. AUDITORLAR PALATASININ MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİ

Azərbaycan Respublikası Auditorlar Palatası təsərrüfat hesablı müstəqil maliyyə orqanı olmaqla, Əsasnaməsinə uyğun fəaliyyət göstərərək, aşağıdakı maliyyə mənbələrinə malikdir:

- auditor təşkilatları və sərbəst auditorlar tərəfindən ödənilən üzvlük haqqı;
- müxbir üzvlərdən üzvlük haqqı;
- auditor fəaliyyəti ilə məşğul olmaq hüququ verən icazə almaq üçün keçirilən imtahanlarda iştirak etmək üçün ödəniş haqqı;
- kurslar üçün ödəniş haqqı;

Göstərilən maliyyə mənbələrinə uyğun olaraq, Auditorlar Palatasının gəliri 2020-ci ildə aşağıdakı kimi olmuşdur:

(Manatla)

| Gəlir mənbəyi | Məbləğ |
|---|---|
| Üzvlük haqqları | 886 055,0 |
| İxtisasartırma və imtahan gəlirləri | 22 405,0 |
| Müxbir üzvlərdən üzvlük haqqı | 180.00 |
| Müsbət məzənnə fərqi | 146,0 |
| **CƏMİ:** | **908 786,0** |

Beləliklə, 2019-cu il ilə (967 965,0 manat) müqayisədə, 2020-ci ildə (908 786,0 manat) gəlir əldə edilmişdir ki, bu da 6,11 % azalma deməkdir.

Auditorlar Palatası 2020-ci il ərzində Respublika büdcəsinə 1399,63 manat, Dövlət Sosial Müdafiə Fonduna 69 505,34 manat vəsait ödəmişdir. 2020-ci il ərzində Palatada əməkdaşların orta siyahı sayı 61 nəfər olmuş və onlara 386 034,30 manat məbləğində əmək haqqı və mükafat ödənilmişdir.

Beləliklə, 2020-ci ildə 787 640,0 manat xərc çəkilərək, Palata maliyyə-təsərrüfat fəaliyyətini 121 146,0 manat mənfəətlə başa vurmuşdur.

2019-cu il ilə müqayisədə 2020-ci il maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri aşağıdakı cədvəldə və diaqramda əksini tapmışdır:

(Manatla)

| İllər | Gəlir | Xərc | Mənfəət/Zərər |
|---|---|---|---|
| 2019 | 967 965,0 | 960 111,0 | 7 854,0 |
| 2020 | 908  786,0 | 787 640,0 | 121 146,0 |



**Azərbaycan Respublikası Auditorlar Palatasının üzvlərinə**

## Maliyyə hesabatlarının auditinə dair hesabat

### Rəy

Biz Azərbaycan Respublikası Auditorlar Palatasının (Palata) 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, qoşma maliyyə hesabatları Palatanın 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Beynəlxalq İctimai Sektor Uçot Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

### Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsinin" (IESBA) tələblərinə uyğun olaraq Palatadən asılı deyilik və biz digər etik öhdəliklərimizi IESBA məcəlləsinin tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

### Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq İctimai Sektor Uçot Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Palatanı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Palatanın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Palatanın maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəkkaklıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.

- Palatanın daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Palatanın fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli əlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Palatanın fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

MÜSTƏQİL AUDİTORUN HESABATI – DAVAMI

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrk.

Biz həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

"EKOL AUDİT" MMC adından

Qulizadə Elçin İlham oğlu
*Direktor-auditor*

Cəfərov Bayram Sadiq oğlu
*Auditor*

Bakı şəhəri,
19 mart 2021-ci il

## XIII. İNFORMASİYA-TƏBLİĞAT VƏ NƏŞRİYYAT FƏALİYYƏTİ

**Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar toplusu (2010-2020-ci illər)" nəşr etdirilmişdir.**

**"Auditorların müstəqillik qaydaları" nəşr etdirilmişdir.**

**"Auditorlar Palatasının fəaliyyəti barədə ictimaiyyətin KİV-lər vasitəsilə müntəzəm məlumatlandırılması" ilə əlaqədar Palatanın rəhbərliyi və struktur bölmələri tərəfindən cari il ərzində aşağıdakı işlər həyata keçirilmişdir:**

17.01.2020 - Auditorlar Palatasında 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş tədbir keçirilmiş və həmin tədbir Palatanın internet səhifəsində yerləşdirilmişdir;

30.01.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun "Azərbaycan" qəzetində "Prezident İlham Əliyev bu ildə Davos Forumundan ölkəmizin milli maraqlarının təminatı üçün maksimum istifadə etdi" başlığı altında məqaləsi dərc olunmuşdur;

03.02.-10.02.-14.02.-17.02.2020 - Azərbaycan Respublikasının Auditorlar Palatasında yeni üzvlüyə qəbul edilmiş şəxslərlə görüş keçirilmiş və həmin görüş "AZƏRTAC"da işıqlandırılmış, eyni zamanda Palatanın internet səhifəsində yerləşdirilmişdir;

19.02.-25.02.-28.02.-02.03.2020 - Azərbaycan Respublikasının Auditorlar Palatası auditorlar üçün "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi" mövzusunda silsilə seminarlar keçirmiş və həmin seminarlar Palatanın internet səhifəsində yerləşdirilmişdir;

27.02.2020 - Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, "AMEA İqtisadiyyat İnstitutunda Azərbaycanda həyat keyfiyyətinin qiymətləndirilməsi üzrə tədqiqatlar" təqdimatında iştirak etmiş və həmin tədbir Palatanın internet səhifəsində yerləşdirilmişdir;

Moskvada dərc olunan beynəlxalq elmi-praktiki "AUDİT" jurnalının 2020-ci ilin I (yanvar) nömrəsində "Azərbaycan auditinin əldə etdiyi uğurlar və qarşıda duran problemlər" mövzusunda Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzovla geniş müsahibə dərc olunmuşdur;

08.03.2020 - Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun "Açıq hökumət, fəal cəmiyyət və hərkəsdən məsuliyyət" mövzusunda məqaləsi "Respublika" qəzetində dərc olunmuşdur;

16.03.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarına və sərbəst auditorlara üzlük haqlarını vaxtında ödədiklərinə görə təşəkkür məktubu göndərilmiş və həmin məktub Palatanın internet səhifəsində yerləşdirilmişdir;

18.03.2020-ci ildən 10 günlük - Azərbaycan Republikasının Auditorlar Palatasında "Auditorun şəxsi kabineti sisteminin tətbiq edilməsi" mövzusunda silsiləli vebinar keçirilmiş və həmin vebinarlar Palatanın internet səhifəsində yerləşdirilmişdir;

27.03.2020 - Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun "AZƏRTAC"a (Pandemiya ilə əlaqədar) müsahibəsi dərc etdirilmişdir;

08.04.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov Auditorlar Palatasının üzvlərinə müraciət (Pandemiya ilə əlaqədar) göndərmiş və həmin müraciət Palatanın internet səhifəsində yerləşdirilmişdir;

17.04.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun "AZƏRTAC"-da Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan video konfransına dair müsahibəsi dərc etdirilmişdir;

18.04.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov Space TV-yə Pandemiyaya qarşı mübarizə ilə əlaqədar dövlətin gördüyü işlərlə bağlı müsahibə vermişdir;

29.04.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun "AZƏRTAC"-da "Açıq hökumətin təşviqinə dair Milli Fəaliyyət Planında kölgə iqtisadiyyatının azaldılmasına xüsusi önəm verilməsi müasir dövrün tələbləri baxımından aktualdır" başlıqlı məqaləsi dərc etdirilmişdir;

08.05.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun "Respublika" qəzetində "Heydər Əliyevin iqtisadi siyasətində şəffaflıq amili və təhlükəsizlik siyasəti yeni mərhələdə" başlıqlı məqaləsi dərc edilmişdir;

08.05.2020 - Azərbaycan Republikasının Auditorlar Palatasında "COVID-19 böhranı: Maliyyə hesabatları və audit üzərindəki nəticələri" mövzusunda vebinar keçirilmiş və həmin vebinar Palatanın internet səhifəsində yerləşdirilmişdir;

21.05.2020 - 03.06.2020 - Azərbaycan Respublikasının Auditorlar Palatası Aparatının rəhbəri Qəşəm Bayramovun "Azərbaycan auditi - 2019" mövzusunda məqaləsi "İqtisadiyyat" qəzetində dərc etdirilmişdir.

29.05.2020 - Azərbaycan Respublikasının Auditorlar Palatasının sədri, professor Vahid Novruzov və Palatanın Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri Nəcəf Talıbov Rusiya Federasiyasının "Sodrujestvo" Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyası tərəfindən Avrasiya regionunun peşəkar mühasibat və auditorlar təşkilatları rəhbərlərinin iştirakı ilə beynəlxalq videokonfransda iştirak və məruzə ilə çıxış etmişdir. Həmin tədbir Palatanın internet səhifəsində yerləşdirilmişdir;

29.05.2020 - Rusiya Federasiyasının "Sodrujestvo" Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının rəsmi internet səhifəsində Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun beynəlxalq videokonfrans zamanı "Koronavirus (COVID-19) şəraitində audit" mövzusunda çıxışı dərc etdirilmişdir;

09.06.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun "Korrupsiyaya qarşı mübarizə bu gün və sabah üçün də dövlət siyasətinin prioritet məsələsi olaraq qalacaq" başlığı altında məqaləsi “Palitra” qəzetində dərc etdirilmişdir;

09.06.2020 - Maliyyə Nazirliyi MMC-lərə xəbərdarlıq edib (Məcburi auditdən keçməklə əlaqədar), həmin xəbərdarlıq Nazirliyin internet səhifəsində yerləşdirilmişdir;

11.06.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının icraçı direktoru Səbuhi Gülməmmədovun "Məcburi auditdən keçməklə maliyyə hesabatlarınızı şəffaflaşdırın" başlığı altında məqaləsi dərc etdirilmiş və həmin məqalə Palatanın internet səhifəsində yerləşdirilmişdi»r;

12.06.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun "Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin ölüm-dirim mübarizəsinin tarixidir" mövzusunda “AZƏRTAC”-da məqaləsi dərc etdirilmişdir;

13.06.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, Vahid Novruzovun "Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin ölüm-dirim mübarizəsinin tarixidir" mövzusunda “Xalq” qəzetində məqaləsi dərc etdirilmişdir;

19.06.2020 - Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun akademik Ziyad Səmədzadə haqqında məqaləsi "Respublika" qəzetində dərc olunmuşdur;

19.06.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, Vahid Novruzov və Palata sədrinin müşaviri Fəqan Qarayev Rusiya Federasiyasının “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyası tərəfindən Avrasiya regionunun peşəkar mühasibat və auditorlar təşkilatları rəhbərlərinin iştirakı ilə beynəlxalq videokonfransında iştirak etmiş və həmin tədbir Palatanın internet səhifəsində yerləşdirilmişdir;

26.06.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının və Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının nümayəndə heyətləri: Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, Palata sədrinin müşaviri və Beynəlxalq əlaqələr komitəsinin sədri Fəqan Qarayev, Palatanın üzvü, “SR Audit Solutions” MMC-nin direktoru – auditor Səftər Vəlizadə və Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının prezidenti Nuriyyə Novruzova Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) videokonfrans formatında təşkil olunmuş 2020-ci il üzrə İllik Ümumi Yığıncağında iştirak etmiş və həmin tədbir Palatanın internet səhifəsində yerləşdirilmişdir;

07.07.2020 - Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzov ulu öndər Heydər Əliyevin Azərbaycanın dövlət quruculuğunda, iqtisadiyyatın idarə olunmasında, təsərrüfatçılıqda məqsədyönlü, zəngin, çoxcəhətli əməli iş təcrübəsini ümumiləşdirərək “AZƏRTAC”da şərh etmişdir;

28.07.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov Rusiyanın “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyası tərəfindən videokonfrans formatında təşkil edilmiş “Avrasiya regionunun cinayət yolu ilə

əldə edilmiş gəlirlərin yuyulmasına və kölgə iqtisadiyyatına qarşı mübarizədə müstəqil auditin rolunun artırılmasının əsas istiqamətlərinin işlənib hazırlanmasına dair peşəkar audit qurumlarının birgə səylərinin əlaqələndirilməsi üzrə İşçi qrupunun iclası"nda iştirak etmiş və həmin tədbir Palatanın internet səhifəsində yerləşdirilmişdir;

30.07.2020 - Azərbaycan Respublikasının Auditorlar Palatasında auditor adı almaq üçün onlayn imtahanlar keçirilmiş və həmin imtahan barədə məlumat Palatanın internet səhifəsində yerləşdirilmişdir;

31.07.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov Palatanın fəxri üzvü Nigar Rəhimovaya 80 illik yubiley münasibətilə təbrik ünvanlamış və həmin ünvanın mətni Palatanın internet səhifəsində yerləşdirilmişdir;

22-29.07.2020 - Azərbyacan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov və Palatanın icraçı direktoru Səbuhi Gülməmmədovun "İqtisadiyyat" qəzetində "Azərbaycanın zəhmətlə yüksələn ilk xanım auditoru" adlı məqaləsi dərc edilmişdir;

10.08.2020 - Auditorlar Palatasının sədri, professor Vahid Novruzov Space tv kanalına sosial dəstəklə bağlı müsahibə vermişdir;

13.08.2020 - Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin müşaviri və Beynəlxalq əlaqələr komitəsinin sədri Fəqan Qarayev və Palatanın üzvü, "SR Audit Solutions" MMC-nin direktor-auditoru Səftər Vəlizadə Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Kiçik və Orta Müəssisələr üçün Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) arasında videokonfrans formatında təşkil olunmuş iclasda iştirak etmiş və həmin tədbir Palatanın internet səhifəsində yerləşdirilmişdir;

20.08.2020 - Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar toplusu (2010-2020-ci illər)" nəşr etdirilmiş və həmin Toplu barədə məlumat "AzərTac"da işıqlandırılmış, eyni zamanda Palatanın internet səhifəsində yerləşdirilmişdir;

10.09.2020 - Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, Vahid Novruzovun "Azərbaycan" qəzetində "Neft sazişləri Azərbaycan iqtisadiyyatının hərtərəfli inkişafına təkan verir" başlıqlı məqaləsi dərc olunmuşdur;

16.09.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının İcraçı direktoru Səbuhi Gülməmmədovun "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsinin 26-cı ili tamam olur" başlıqlı məqaləsi Palatanın saytında yerləşdirilmişdir;

30.09.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun "Dayanıqlı İnkişaf Məqsədləri Azərbaycanda uğurla həyata keçirilməkdədir" başlıqlı məqaləsi "AZƏRTAC"da dərc etdirilmişdir;

01.10.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun "Dayanıqlı İnkişaf Məqsədləri Azərbaycanda uğurla həyata keçirilməkdədir" başlıqlı məqaləsi “İKİ SAHİL” qəzetində dərc etdirilmişdir;

Azərbaycan Respublikasının Auditorlar Palatası cəbhə bölgəsinə 2 dəfə yardım paketləri göndərmiş və bu barədə məlumat “AzərTac”da işıqlandırılmış, eyni zamanda Palatanın internet səhifəsində yerləşdirilmişdir;

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbər işçiləri bir aylıq əmək haqlarını Azərbaycan Silahlı Qüvvələrinin Yardım Fonduna köçürmüş və bu barədə məlumat “AzərTac”da işıqlandırılmış, eyni zamanda Palatanın internet səhifəsində yerləşdirilmişdir;

09.10.2020 - “Auditorların müstəqillik qaydaları” kitabı işıq üzü görmüş və bu barədə məlumat “AzərTac”da işıqlandırılmış, eyni zamanda Palatanın internet səhifəsində yerləşdirilmişdir;

10.10.2020 - Auditorlar Palatasının sədri, professor Vahid Novruzov işğalçı Ermənistanın növbəti təxribatı ilə bağlı xarici həmkarlarına müraciət edib” başlıqlı məqalə “Azərtac”da dərc edilmişdir;

14.10.2020 - Auditorlar Palatası tərəfindən beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış və nəşr olunmuş “Auditorların müstəqillik qaydaları» kitabının videokonfrans formatında təqdimat mərasimi keçirilmiş və bu barədə məlumat “AzərTac”da işıqlandırılmış, eyni zamanda Palatanın internet səhifəsində yerləşdirilmişdir;

21.10.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, Vahid Novruzov "BDO AZƏRBAYCAN" MMC-nin kollektivini 10 illik yubileyi münasibəti ilə təbrik etmiş və bu barədə təbrikin mətni Palatanın internet səhifəsində yerləşdirilmişdir;

22.10.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri professor Vahid Novruzov, Palata sədrinin müşaviri Fəqan Qarayev, Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov və işçi qrupunun üzvü, Azel-Audit” MMC-nin direktor-auditoru Elzadə Süleymanova Rusiyanın “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyası tərəfindən videokonfrans formatında təşkil edilmiş Avrasiya regionunun audit və mühasibatlıq qurumlarının rəhbərlərinin iştirakı ilə “Cinayət yolu ilə əldə edilmiş gəlirin yuyulmasına və kölgə iqtisadiyyatına qarşı mübarizədə müstəqil auditin rolunun artırılmasının əsas istiqamətlərinin işlənib hazırlanması üzrə peşəkar auditor və mühasibatlıq təşkilatlarının birgə səylərinin koordinasiyası üzrə işçi qrupu”nun iclasında iştirak etmişlər və bu barədə məlumat Palatanın internet səhifəsində yerləşdirilmişdir;

10.11.2020 - Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov - Azərbaycan Respublikası Auditorlar Palatasının kollektivi və üzvləri adından Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə işğal olunmuş ərazilərimizin azad edilməsi istiqamətində qazandığı tarixi zəfərlər

münasibətilə təbrik məktubu ünvanlamış və həmin təbrikin mətni “İqtisadiyyat” qəzetində dərc etdirilmiş, eyni zamanda Palatanın internet səhifəsində yerləşdirilmişdir;

11.11.2020 - Özbəkistan Auditorlar Palatasının sədri cənab Ravşan Xaydarov Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyini "Qələbə" münasibəti ilə təbrik etmiş və həmin təbrikin mətni Palatanın internet səhifəsində yerləşdirilmişdir;

24.11.2020 - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müharibədən sonrakı dövrdə işğal olunmuş ərazilərin bərpasına dair konseptual təklif və göstərişlərinin reallaşdırılması istiqamətində zəruri tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində elmi-praktik əhəmiyyət kəsb edən tövsiyələrin müəyyənləşdirilməsi məqsədilə, Azərbaycan İqtisadçılar İttifaqı və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə “Qələbəyə aparan yol: iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” mövzusunda onlayn elmi-praktik konfrans keçirilmiş və həmin konfrans “AZTV”nin “Xəbərlər” proqramında, “AzərTac”da, “İqtisadiyyat” qəzetində işıqlandırılmış, eyni zamanda Palatanın internet səhifəsində yerləşdirilmişdir.

Cari ildə sosial şəbəkələrdə Auditorlar Palatasının Facebook səhifəsində 66, Twitter səhifəsində 9, İnstagram səhifəsində 53, Youtube səhifəsində isə 10 xəbər yerləşdirilmişdir.

Bütün bu görülən işlərlə yanaşı Palata sədrinin 2020-ci il 15 aprel tarixli 1/12 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Pandemiyaya qarşı mübarizə və onun nəticələrinin aradan qaldırılmasına dair Azərbaycan Respublikası Auditorlar Palatasının Tədbirlər Planı”na uyğun olaraq, həmin Tədbirlər Planında nəzərdə tutulmuş 25 bəndin icrası istiqamətində görülmüş bütün işlər Palata üzvlərinə və ictimaiyyətə çatdırılması üçün KİV-lər vasitəsilə işıqlandırılmış, eyni zamanda Palatanın internet səhifəsində yerləşdirilmişdir.

Palatanın müvafiq strukturları tərəfindən hazırlanmış təlimatlar, tövsiyələr, metodik göstərişlər, şərhlərlə bərabər, Palatanın və onun Şurasının iş planlarında, Palatanın iş planına əsasən tərtib edilmiş Plan-proqramlarda, Palata rəhbərliyinin əmrlərində, Sərəncamlarında və tapşırıqlarında icra olunan, təsdiq edilən və ictimaiyyətə çatdırılması zəruri hesab edilən materiallar Palatanın internet saytında və sosial şəbəkələrdə yerləşdirilmişdir.

Bu bəndin icrasına dair hazırlanmış hesabat Auditorlar Palatasının Şurasının 2020-ci il 17 dekabr tarixli iclasında müzakirə edilərək 326/3 nömrəli qərarla bəyənilmişdir.

http://audit.gov.az/Upload/Files/2019/shura_326_3.pdf

**“Auditor xidməti” onlayn rejimli forum, interaktiv sual-cavab bölməsi, çat və digər əlaqələndirmə sistemlərinin tətbiq edilməsi"** ilə əlaqədar Palatanın 2020-ci il 12 mart tarixində istifadəyə verilmiş yenilənmiş “audit.gov.az” internet səhifəsində onlayn rejimdə işləyən çat sistemi qurulmuş və onun işlək fəaliyyəti təmin edilmişdir.

**IFAC, EFAA və digər beynəlxalq peşəkar qurumların yeniliklərinin öyrənilməsi**, **tərcümə edilməsi və zəruri hallarda Palatanın internet səhifəsində**

**yerləşdirilməsini təmin etmək məqsədilə** il ərzində EFAA və IFAC yenilikləri izlənilmiş və hər iki qurum haqqında bütün yeniliklər, o cümlədən, il ərzində EFAA tərəfindən dərc olunmuş 23 bülleten və EFAA ilə bağlı bütün xəbərlər Palatanın internet səhifəsində ayrılmış xüsusi bölmədə yerləşdirilmişdir.

## MÜNDƏRİCAT:


ÖN ÖZ…………………………………………………………………………………......................3

I.GİRİŞ…………………………………………………………………………………..…...…....5

II. AUDİTORLAR PALATASININ DÖVLƏT PROQRAMLARINDA İŞTİRAKI……........…...8

III. AUDİTİN TƏŞKİLİ VƏ TƏNZİMLƏNMƏSİ………………………………......…….…....12

IV. AUDİTOR TƏŞKİLATLARININ VƏ SƏRBƏST AUDİTORLARIN
2020-Cİ İLİN YEKUNU ÜZRƏ FƏALİYYƏTİNƏ DAİR İCMAL-TƏHLİL……….............15

V. ŞƏFFAFLIĞIN TƏMİNATI VƏ KORRUPSİYAYA QARŞI MÜBARİZƏ……......…...…..27

VI. AUDİTOR XİDMƏTİNİN KEYFİYYƏTİNƏ KƏNAR NƏZARƏT……………......……….…..27

VII. AUDİTOR KADRLARININ HAZIRLANMASI VƏ PEŞƏ-İXTİSAS
SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ……………...…………………………….............29

VIII. KONFRANSLAR, SİMPOZİUMLAR, SEMİNARLAR VƏ DİGƏR TƏDBİRLƏR........31

IX. BEYNƏLXALQ ƏLAQƏLƏR……………………………………………......…..........42

X. AUDİTORLAR PALATASININ ŞURASI YANINDA KOMİTƏLƏRİN
VƏ KOMİSSİYANIN FƏALİYYƏTİ.........................................................................52

XI. AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ
2020-Cİ İL ƏRZİNDƏ KEÇİRDİYİ İCLASLAR HAQQINDA……………….................53

XII. AUDİTORLAR PALATASININ MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİ……......…....59

XIII. İNFORMASİYA-TƏBLİĞAT VƏ NƏŞRİYYAT FƏALİYYƏTİ……………………….........64